# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 10 MART 2022-Cİ İL / № 09 (1276)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU




## Əmək pensiyasına qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 3135 nömrəli Sərəncamının icrasını təmin etmək və əmək pensiyasına qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarının sosial müdafiəsini gücləndirmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

1.1. 2022-ci il yanvarın 1-dək pensiya təyin edilmiş qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına 2022-ci ildə aylıq əmək pensiyası məbləğinin (qulluq stajına görə əlavələr nəzərə alınmaqla) 10 faizi məbləğində aylıq maddi yardımın hər ay onların pensiyasının məbləği ilə birlikdə ödənilməsini təmin etsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maddi yardımın 2023-cü il yanvarın 1-dən etibarən onun şamil edildiyi əmək pensiyaçılarının pensiyalarının tərkibinə daxil edilməsinə dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maddi yardımın dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi üçün zəruri tədbirlər görsün;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncamın 1-ci hissəsi 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 4 mart 2022-ci il**

# Həmkarlar ittifaqlarına olan müraciətlərin 97,9 %-i müsbət həllini tapıb



Martın 4-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) İcraiyyə Komitəsinin onlayn formatda iclası keçirilib.

**AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev** iclasın gündəliyinə "AHİK-in İcraiyyə Komitəsinin və aparatının 2022-ci ilin I yarımilliyi üçün iş planı haqqında", "Həmkarlar ittifaqı təşkilatlarının 2021-ci il üzrə statistik hesabatı haqqında", "2021-ci ildə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının kurslarında həmkarlar ittifaqı kadr və fəallarının təhsilinin nəticələri və 2022-ci il üçün təhsil planı haqqında", "2021-ci il ərzində AHİK və üzv təşkilatlarına daxil olmuş ərizə və şikayətlərin təhlili barədə", "Azərbaycan həmkarlar ittifaqları idman təşkilatlarının 2021- ci ilin yekunları üzrə fəaliyyəti və statistik hesabatlarının əsas göstəriciləri haqqında", "Azərbaycan həmkarlar ittifaqlarının 2021-ci il üzrə gender statistikası haqqında", "2021-ci il üzrə əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş gənclərə "İlin peşəkar gənci" fəxri adının verilməsi barədə", "Novruz bayramı ilə əlaqədar aztəminatlı ailələrə ərzaq yardımı göstərilməsi barədə", "YAŞAT" Fonduna maliyyə yardımı göstərilməsi barədə" və "Qarabağ Dirçəliş Fonduna pul vəsaitinin ayrılması haqqında" məsələlərin daxil edildiyi barədə məlumat verib.

Müzakirələrdən öncə S.Möhbalıyev qarşıdan gələn 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ölkəmizin bütün xanımlarını, o cümlədən Azərbaycan həmkarlar ittifaqlarının qadın üzvlərini təbrik edib, onlara möhkəm cansağlığı, səadət və gələcək işlərində uğurlar diləyib. Bildirib ki, şəhid analarına və xanımlarına, döyüşlərdə sağlamlığını itirmiş hərbçilərimizin ömür-gün yoldaşlarına, Vətənimiz üçün layiqli övladlar böyüdən əsgər analarına ən xoş arzularımı çatdırıram.

Sonra gündəliyə çıxarılan məsələlərin müzakirəsinə başlanılıb. "2021-ci il ərzində AHİK və üzv təşkilatlarına daxil olmuş ərizə və şikayətlərin təhlili barədə" məsələnin müzakirəsi zamanı qeyd olunub ki, Azərbaycan həmkarlar ittifaqları aparatlarına 2021-ci ildə həmkarlar ittifaqı üzvlərindən 143 834 ərizə və şikayət, o cümlədən elektron poçt vasitəsilə 1 093 müraciət daxil olub. Onlardan 97,9 %-i müsbət həll edilib.

BAX SƏHİFƏ: 2

# *Son iki ayda əhaliyə müavinətlər üzrə 132 milyon, təqaüdlər üzrə 89 milyon manat ödənilib*




**2022-ci ilin yanvar və fevral aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən 772 min şəxsə sosial müavinət və təqaüd ödənilib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, onlardan 407 min nəfəri sosial müavinətlə, 365 min nəfəri Prezidentin aylıq təqaüdü ilə təmin olunub.

**Müavinət ödənişləri üçün, ötən ilin müvafiq dövrünə nisbətən 34 faiz çox olmaqla, 132 milyon manat, təqaüd ödənişləri üçün, 25 faiz çox olmaqla 89 milyon manat sərf edilib.**

**Son üç ildə müavinət və təqaüdlərin də elektron təyinatı sistemləri işə salınıb. 2022-ci ilin 2 ayında 86 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada aparılıb.**

*Müəllim xanımların əməyi ikiqat çoxdur*

BAX SƏHİFƏ: 4

Hədiyyə: "Bravo"dan alış-veriş kartları

BAX SƏHİFƏ: 4

Həm sayğımızı göstərir, həm də stimullaşdırırıq

BAX SƏHİFƏ: 4

*İdman mütəxəssisləri mükafatlandırılıblar*

BAX SƏHİFƏ: 8

## Səttar Möhbalıyev: "Azərbaycan qadını Vətənə sədaqəti və fədakarlığı ilə seçilir"

BAX SƏHİFƏ: 2

## Ümummilli Liderin xatirəsinə həsr olunmuş turnir

*22 komandanın iştirakı ilə keçiriləcəyi nəzərdə tutulmuş bu idman tədbirinin aprelin əvvəllərində start götürəcəyi nəzərdə tutulub*

BAX SƏHİFƏ: 4

# COVID-19 infeksiyasına son sutkada 126 yoluxma faktı qeydə alınıb




**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 126 yoluxma faktı qeydə alınıb, 882 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 11 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 789 min 883 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 777 min 396 nəfər müalicə olunaraq sağalıb, 9558 nəfər vəfat edib. Aktiv xəstə sayı 2929 nəfərdir.

*Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 3942, bu günə qədər isə ümumilikdə 6 milyon 611 min 402 test icra olunub.*

## Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 6

## Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

## Beynəlxalq

*Qadınlar üçün daha yaxşı məşğulluq imkanları yaradılmalıdır*

BAX SƏHİFƏ: 7

# Həmkarlar ittifaqlarına olan müraciətlərin 97,9 %-i müsbət həllini tapıb



**Martın 4-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) İcraiyyə Komitəsinin onlayn formatda iclası keçirilib.**

**AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev** iclasın gündəliyinə "AHİK-in İcraiyyə Komitəsinin və aparatının 2022-ci ilin I yarımilliyi üçün iş planı haqqında", "Həmkarlar ittifaqı təşkilatlarının 2021-ci il üzrə statistik hesabatı haqqında", "2021-ci ildə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının kurslarında həmkarlar ittifaqı kadr və fəallarının təhsilinin nəticələri və 2022-ci il üçün təhsil planı haqqında", "2021-ci il ərzində AHİK və üzv təşkilatlarına daxil olmuş ərizə və şikayətlərin təhlili barədə", "Azərbaycan həmkarlar ittifaqları idman təşkilatlarının 2021- ci ilin yekunları üzrə fəaliyyəti və statistik hesabatlarının əsas göstəriciləri haqqında", "Azərbaycan həmkarlar ittifaqlarının 2021-ci il üzrə gender statistikası haqqında", "2021-ci il üzrə əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş gənclərə "İlin peşəkar gənci" fəxri adının verilməsi barədə", "Novruz bayramı ilə əlaqədar aztəminatlı ailələrə ərzaq yardımı göstərilməsi barədə", "YAŞAT" Fonduna maliyyə yardımı göstərilməsi barədə" və "Qarabağ Dirçəliş Fonduna pul vəsaitinin ayrılması haqqında" məsələlərin daxil edildiyi barədə məlumat verib.

**Müzakirələrdən öncə S.Möhbalıyev qarşıdan gələn 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ölkəmizin bütün xanımlarını, o cümlədən Azərbaycan həmkarlar ittifaqlarının qadın üzvlərini təbrik edib, onlara möhkəm cansağlığı, səadət və gələcək işlərində uğurlar diləyib. Bildirib ki, şəhid analarına və xanımlarına, döyüşlərdə sağlamlığını itirmiş hərbçilərimizin ömür-gün yoldaşlarına, Vətənimiz üçün layiqli övladlar böyüdən əsgər analarına ən xoş arzularımı çatdırıram.**

Sonra gündəliyə çıxarılan məsələlərin müzakirəsinə başlanılıb. "2021-ci il ərzində AHİK və üzv təşkilatlarına daxil olmuş ərizə və şikayətlərin təhlili barədə" məsələnin müzakirəsi zamanı qeyd olunub ki, Azərbaycan həmkarlar ittifaqları aparatlarına 2021-ci ildə həmkarlar ittifaqı üzvlərindən 143 834 ərizə və şikayət, o cümlədən elektron poçt vasitəsilə 1 093 müraciət daxil olub. Onlardan 97,9 %-i müsbət həll edilib.

Bildirilib ki, ötən il 124 həmkarlar ittifaqı üzvü AHİK-in rəhbərləri tərəfindən qəbul edilib ki, onun da 65 nəfəri sədrin qəbulunda olub və qaldırdıqları məsələlər öz müsbət həllini tapıb.

Ümumiyyətlə, 2021-ci il ərzində əmək hüquqlarının müdafiəsi ilə bağlı daxil olan ərizə və şikayətlərin arasından işə bərpa ilə əlaqədar həmkarlar ittifaqına 297 müraciət daxil olub, onlardan 193-ü və ya 65,0 %-i müsbət həll olunub.

İttifaq üzvlərinin müraciətlərinə göstərilən diqqət və qayğıya görə AHİK-in ünvanına 27 təşəkkür məktubu ünvanlanıb.

**İclasda qəbul olunmuş qərarla üzv təşkilatların rəhbərlərinə tövsiyə olunub ki, həmkarlar ittifaqı üzvlərindən daxil olan məktubların obyektiv şəkildə hərtərəfli araşdırılması, faktların təsdiqi müqabilində qaldırılan məsələlərin həllinə köməklik göstərilməsi, şikayətçilərin məlumatlandırılması ilə əlaqədar müvafiq şöbə və ya mütəxəssislərin vəzifə məsuliyyətlərinin artırılması, təkrar müraciətlərin səbəblərinin aydınlaşdırılması məsələlərinə nəzarət gücləndirilsin.**

"Həmkarlar ittifaqı təşkilatlarının 2021-ci il üzrə statistik hesabatı haqqında" məsələ ilə bağlı məlumat verilib. Qeyd olunub ki, Konfederasiyaya üzv olan 27 təşkilatda 15 039 həmkarlar ittifaqı təşkilatı, o cümlədən 62 birləşmiş və 501 şəhər, rayon komitələri fəaliyyət göstərir. 2020-ci illə müqayisədə həmkarlar ittifaqı sıralarına cəlb edilən tələbələrin sayı 5,1 % artmaqla həmkarlar ittifaqı üzvlərinin ümumi sayı da 0,9% artıb. Həmkarlar ittifaqı üzvlərinin sayı Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqında 3,9 %, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqında 3,0 %, "Azərsu" Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqında 2,7 %, Fövqəladə Hallar Nazirliyi İşçiləri Həmkarlar İttifaqında 2,5 %, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında 0,5 % artıb. Üzvlərin sayı 15 nəfərə qədər olan təşkilatların sayında da 0,4 % artım var. Respublikada kiçik və orta sahibkarlıq, xarici və birgə müəssisələrdə ötən il ərzində həmkarlar ittifaqı təşkilatlarının sayında 0,5 % azalma müşahidə olsa da, həmkarlar ittifaqı üzvlərinin sayı 2,6% artıb.

**Qeyri-dövlət sektorunda 7 sahə üzrə 56 yeni ilk həmkarlar ittifaqı təşkilatı yaradılıb. Orada həmkarlar ittifaqı üzvlərinin sayı 3304 olub. Bu da yeni yaradılan təşkilatların sayının ötən illə müqayisədə 4, üzvlərinin sayında isə 7 dəfə artım deməkdir. Ötən il ərzində üzv təşkilatlar tərəfindən yeni yaradılmış 107 həmkarlar ittifaqı təşkilatında 13 808 nəfər həmkarlar ittifaqı sıralarına qatılmış və nəticədə orada üzvlüyə cəlb olunanların sayı əvvəlki ilə nisbətən 2,5 dəfə artıb.**

Bildirilib ki, həmkarlar ittifaqı üzvü olan qadınların sayı 1,6 % artıb və üzvlərin ümumi sayının 52,3 %-ni təşkil edir. Gənclərin sayı da 0,5 % artıb. Ötən il işəgötürənlərlə 123 saziş, 11806 kollektiv müqavilə bağlanıb. Müqavilə bağlayan həmkarlar ittifaqı təşkilatlarının sayı əvvəlki ilə nisbətən 0,7 %, müqavilələrlə əhatə olunan üzvlərin sayı isə 4,1 % artıb.

"2021-ci il üzrə əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş gənclərə "İlin peşəkar gənci" fəxri adının verilməsi barədə" məsələyə baxılarkən bildirilib ki, AHİK İcraiyyə Komitəsinin qərarı ilə 2015-ci ildə "İlin peşəkar gənci" fəxri adı təsis edilib və indiyə kimi, 87-si qadın olmaqla, 369 nəfər gənc "İlin peşəkar gənci" fəxri adına layiq görülüb.

İcraiyyə Komitəsinin budəfəki qərarı ilə əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş daha 58 gənc bu fəxri adı alıb.

**Həmçinin "YAŞAT" Fonduna 50 000 manat, Qarabağ Dirçəliş Fonduna 50 000 manat vəsait köçürülməsi, bundan başqa, respublikanın 76 rayonunda yaşayan 4015 aztəminatlı ailəyə ərzaq bağlamalarının paylanması, eyni zamanda Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasına eyni məqsədlər üçün 50 000 manat vəsaitin köçürülməsi barədə İcraiyyə Komitəsi müvafiq qərarlar qəbul edib.**

Gündəliyə daxil edilmiş "2021-ci ildə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının kurslarında həmkarlar ittifaqı kadr və fəallarının təhsilinin nəticələri və 2022-ci il üçün təhsil planı haqqında" məsələnin müzakirəsi zamanı bildirilib ki, 2021-ci ildə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu Konfederasiyanın üzv təşkilatları ilə birgə həmkarlar ittifaqları kadr və fəallarının təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində səmərəli tədbirlər həyata keçirib. Ötən ilin sentyabr-noyabr ayları ərzində 254 nəfər kurslarda iştirak edib.

2021-2022-ci illərin təsdiq edilmiş təhsil planına əsasən, həmkarlar ittifaqlarının 830 nəfər fəalının Akademiyanın kurslarında onlayn təhsilə cəlb olunması nəzərdə tutulub.

**Pandemiya ilə əlaqədar olaraq 2021-2022-ci illər üçün həmkarlar ittifaqı kadr və fəallarının təhsil planı mərhələlərlə onlayn formatda həyata keçirilir. Belə ki, 2022-ci ildə 578 nəfərin təhsilə cəlb olunması planlaşdırılır. Müzakirələrdən sonra Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının 2022-ci il üçün təhsil planı təsdiq edilib.**

Daha sonra gündəlikdə olan digər məsələlər, o cümlədən cari və təşkilati məsələlərə dair müzakirələr aparılıb, müvafiq qərarlar qəbul edilib.

Sonda AHİK sədri əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası, sağlam və təhlükəsiz iş şəraitinin yaradılması, bədbəxt hadisələrin, istehsalat zədələrinin, peşə xəstəliklərinin minimuma endirilməsi, əməyin mühafizəsi üzrə qayda və normalara əməl edilməsi məqsədilə mütəmadi maarifləndirmə tədbirlərinin həyata keçirilməsini tövsiyə edib.

S.Möhbalıyev həmçinin deyib ki, həmkarlar ittifaqlarına ünvanlanan bütün müraciətlər dərindən araşdırılsın, qaldırılan bütün problemlər qanunvericiliyə uyğun olaraq vaxtında həll edilsin, vətəndaş məmnunluğu tam təmin olunsun.

**Şəhid ailələrinin və valideynlərinin, qazilərin, veteranların müraciətlərinə həssaslıqla yanaşmağı diqqətə çatdıran Konfederasiya sədri bunun hamımızın müqəddəs borcu olduğunu vurğulayıb.**






# Səttar Möhbalıyev:

## "AZƏRBAYCAN QADINI VƏTƏNƏ SƏDAQƏTİ VƏ FƏDAKARLIĞI İLƏ SEÇİLİR"

**"8 Mart - Beynəlxalq Qadınlar Gününə Azərbaycanda diqqət kifayət qədər böyükdür, ölkəmizdə bu bayram xüsusi təmtəraqla qeyd olunur. İdarə, təşkilat və müəssisələrdə bu məqsədlə tədbirlər təşkil olunur, qadınlara hörmət və ehtiram nümayiş etdirilir. Dövlətimizin başçısı cənab İlham Əliyev hər il bayram münasibətilə Azərbaycan qadınlarına təbrik ünvanlayır, onların ölkəmizin inkişafında xidmətlərini qeyd edir, bir qrupuna fəxri adlar verir, orden və medallarla təltif edir. Bu, ölkə qadınlarına dövlət səviyyəsində olan diqqət və qayğının əlamətidir. Ümumilikdə Prezidentin siyasi fəaliyyətinin mühüm tərəfini qadınlar təşkil edir və onların ölkəmizin ictimai-siyasi həyatında rolu durmadan artmaqdadır".**

**Bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.**

Onun sözlərinə görə, tarixən milli dəyərlərdən, adət-ənənələrdən irəli gələrək cəmiyyətimizdə qadına dərin hörmətlə yanaşılıb, ana adı uca tutulub və müqəddəs hesab olunub: "Tarixin hər bir səhifəsində qadınlarımızın xidmətlərinə, qəhrəmanlıqlarına, dövlətçiliyimizin inkişafına verdiyi töhfələrə, yetirdiyi övladların rəşadətinə, tərbiyə etdiyi oğul və qızlarının vətənpərvərliyinə rast gəlmək mümkündür. Onlar ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin, Ana dilimizin inkişafında müstəsna xidmətlər göstəriblər. Tomris, Məhsəti, Sara xatun, Həcər, Natəvan kimi analarımız Azərbaycan qadınının şan-şöhrətini ucalara qaldırıb və gələcək nəsillərə nümunə olublar. Hər zaman müqəddəs ana şərəfini uca tutan Azərbaycan qadını öz mübarizliyi ilə tanınmış, ölkənin ictimai-siyasi, mədəni həyatında fəal iştirak etmiş, Vətənin müdafiəsində və dövlətin idarə olunmasında daim fədakarlıq nümayiş etdirməklə bərabər, döyüş meydanlarında da şücaət göstərmişlər".

**Ölkəmizdə dövlət-qadın siyasətinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu deyən AHİK sədri qeyd edib ki, Ulu Öndər hər zaman qadın şəxsiyyətinə dərin hörmətlə yanaşırdı: "Ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırdı, onların hərtərəfli fəaliyyətinə geniş meydan verdi, lider qadınlar yetişdirdi".**

"Azərbaycanın Birinci vitse-prezident Mehriban xanım Əliyeva öz zəngin fəaliyyəti ilə Azərbaycan qadınının müsbət imicini formalaşdırıb. O, ölkəmizlə yanaşı, dünya səviyyəsində də gördüyü nəcib və humanist əməllərlə Azərbaycanı bütün dünyada ləyaqətlə təmsil edir. Xeyirxah işləri ilə Azərbaycan qadını adını ucalara qaldırır. Onun beynəlxalq səviyyədə əldə etdiyi nailiyyətlər həm də Azərbaycan qadınının uğurudur. Hər birimizi qürurlandırır ki, Azərbaycan qadını bu gün UNESCO və ICESCO-nun xoşməramlı səfiridir. Azərbaycan qadınının təşəbbüsü ilə müsəlman ölkələrində xeyriyyə aksiyaları keçirilir, müsəlman uşaqların təhsili və sağlamlığı ilə bağlı davamlı layihələr reallaşdırılır, xarici ölkələrdə məktəblər tikilir. Bir sözlə, Mehriban xanımın timsalında Azərbaycan qadınının mərhəmət və xeyirxahlığına, zəngin mənəvi-intellektual və yüksək əxlaqi dəyərlərinə fəxarətlə şahidlik edirik", - Milli Məclisin deputatı deyib.

**S.Möhbalıyev vurğulayıb ki, istər Birinci Qarabağ müharibəsində, istərsə də Vətən müharibəsində Azərbaycan qadını fədakarlıq və şücaət nümayiş etdirdi: "Məhz onların vətənpərvərlik ruhunda tərbiyə etdiyi qəhrəman oğullarımız zəfərimizin əsas təminatçısı oldu. Qələbə istəyi ilə övladlarını işğal altında olan torpaqlarımızı azad etməyə göndərən analar Vətən hissini hər şeydən uca tutdular. Hətta şəhid balalarının cənazəsi qarşısında cəsarətlə dayandılar, sınmadılar, hamısı "Vətən sağ olsun" deyərək başını dik tutdu. Bax, budur Azərbaycan qadınının fədakarlığı. Əziz xanımlarımızı, o cümlədən şəhid anaları və xanımlarını, qazilərimizin ömür-gün yoldaşlarını, həmçinin əsgər analarını 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, onlara ən xoş və səmimi arzularımı çatdırıram".**

*AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi*

## *Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə*

**Hörmətli Səttar müəllim!**

**Müraciətimin operativ həll edilməsini təmin etdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm. Bir daha əmin oldum ki, vətəndaşlarımız tərəfindən Sizə edilən müraciətlər dərhal həllini tapır. Qəbulunuza gələn, dərdini Sizə danışan heç kim ümidsiz halda geri dönmür.**

Qaldırılan məsələlər qanunvericiliyə uyğun olaraq vaxtında həll edilir, vətəndaş məmnunluğu tam təmin olunur. Vətəndaşlarımızın istədiyi, sadəcə, diqqət və qayğıdır. Mən bunun bir daha şahidi oldum.

**Tamara ƏLİYEVA,**
**Balakən rayonunun sabiq icra başçısı**

## Təşəkkür məktubu

### *Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı*

# *Səttar Möhbalıyevə*

**Hörmətli Səttar müəllim!**

**Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı qələbə Qarabağın uzun illər davam edən işğalına son qoydu və Ermənistanın təcavüzü nəticəsində evlərini tərk etmiş 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün öz doğma yurdlarına qayıtmasına imkan yaratdı.**

Azərbaycan dövlətinin tarixində əbədi qalacaq bu Qələbə ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsində yeni reallıq yaratdı.

Lakin torpaqların işğaldan azad edilməsi humanitar fəlakətlə yanaşı, Qarabağda dağıntıların miqyasını da üzə çıxardı.

Bu dağıntıların dəhşətli həcmi barədə daha ətraflı ideya müəllifi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın olduğu, Ermənistan-Azərbaycan münaqişəsinin səbəbləri və Ermənistanın təcavüzünün nəticələri barədə obyektiv məlumatların sistemləşdirilməsi və geniş ictimaiyyətə çatdırılması məqsədilə yaradılan "Karabakh.Center" internet resursunda tanış ola bilərsiniz.

**Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Fərmanı ilə yaradılan Qarabağ Dirçəliş Fondu işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində aparılan tədbirlərə maliyyə dəstəyinin göstərilməsini və sərmayələrin cəlb edilməsini həyata keçirən publik hüquqi şəxsdir.**

Xüsusilə vurğulamaq istərdim ki, Fond yarandığı gündən etibarən minlərlə həmvətənimiz, yüzlərlə şirkət birlik nümayiş etdirərək Qarabağda aparılacaq işlərə dəstək göstərmək məqsədilə quruma ianə edib.

**Hörmətli Səttar müəllim!**

**Sizin timsalınızda rəhbərlik etdiyiniz quruma Qarabağın dirçəlişi istiqamətində görülən işlərə ianə edərək verdiyiniz töhfəyə görə dərin minnətdarlığımı bildirirəm.**

İnanıram ki, bu əməkdaşlığımız üçün uğurlu bir başlanğıc olacaq və ölkəmizin rifahı naminə görülən işlərdə aramızda yaranan tərəfdaşlığa daha geniş rəvac verəcək.

**Məlumat üçün bildirmək istərdim ki, növbəti tədbirlərdən birində qurumunuzun adına hazırlanmış xüsusi "İanə Sertifikatı" da fondumuz tərəfindən Sizə təqdim ediləcək.**

Xatırladım ki, bütün icra etdiyimiz layihələr haqqında hesabatlar mütəmadi olaraq donorlara, eyni zamanda ictimaiyyətə təqdim olunacaq.

**Diqqətinizə görə Sizə təşəkkür edir və dərin hörmətimi bildirirəm!**

**Rəhman HACIYEV,**
**Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri**

# YENİ SƏDR SEÇİLDİ

**"Bakı Avtomobil Sənaye" ASC Həmkarlar İttifaqı Komitəsinin bu günlərdə keçirilmiş iclasında təşkilati məsələyə baxıldı. Komitə üzvləri tərəfindən sədr vəzifəsinə namizədliyi təqdim olunmuş Firudin Əliyevin müəssisənin ictimai həyatında iştirakı, həmkarlar ittifaqı sıralarında fəaliyyəti barədə məlumat dinlənildi. F.Əliyevin həmkarlar ittifaqı komitəsinin sədri vəzifəsinə namizədliyi yekdilliklə dəstəkləndi.**

Sonra komitə üzvləri seçildi. Tədbirdə Metal İşçiləri Həmkarlar İttifaqı Federasiyası ilə "Bakı Avtomobil Sənaye" ASC arasında qarşılıqlı əməkdaşlıq müqaviləsi imzalandı.

İclasda Metal İşçiləri Həmkarlar İttifaqı Federasiyasının prezidenti Bəkir Yusifov və "Bakı Avtomobil Sənaye" ASC-nin direktoru Sadiq Əliyev onlayn formatda iştirak etdilər.

**"Bakı Avtomobil Sənaye" ASC-nin sələfi olan Bakı Avtomobil Zavodu 1969-cu ildə istifadəyə verilmişdi. Müəssisədə 90-cı illərin əvvəllərinə qədər yük furqonları, azyerli avtobuslar yığılırdı. Hazırda müəssisədə şəhər və şəhərətrafı marşrutlarda işləyən avtobuslara texniki xidmət göstərilir.**

# *Beynəlxalq əməkdaşlığın inkişafı istiqamətində uğurlu işlər davam etdirilir*




**Martın 6-da Ankara şəhərində "Türk-Metal" Həmkarlar İttifaqları Konfederasiyasının xidmət sahəsində çalışan qadın işçilərin 27-ci qurultayı başlayıb.**

**Martın 9-da başa çatan qurultayda Türk işçi qadınların əmək, sosial problemləri, həmkarlar ittifaqı hərəkatında iştirakı və sair məsələlər müzakirə olunub. Hər il keçirilən bu qurultaya Azərbaycan "Metal-İş" Həmkarlar İttifaqı Federasiyasının nümayəndə heyəti də qatılmışdı.**

**Federasiyanın prezidenti Bəkir Yusifov qurultaya təbrik məktubu göndərib. Məktubda dost ölkənin Həmkarlar İttifaqı Konfederasiyasının regionda yaranan siyasi, iqtisadi gərginlik şəraitində işçi qadınların ali məclisini çağırmasını yüksək qiymətləndirib. Qeyd edib ki, belə bir vaxtda gender bərabərliyinə diqqət çəkmək çox vacib və aktualdır.**

**Biz türkiyəli həmkarlarımızla, digər sahələrdə olduğu kimi, gender bərabərliyi sahəsində əməkdaşlığımızı davam etdirəcəyik.**

# Şəhidlər xalqı işıqlı sabaha aparan, ölümləri ilə ölməzlik qazanan əbədiyaşar insanlardır...



**Səhiyyə İşçiləri Həmkarlar İttifaqı da daim bu əbədiyaşar insanları məhəbbət və qürur hissi ilə yad edir, onların doğmalarını öz doğmaları kimi diqqətdə saxlayır.**

Vətən müharibəsində səhiyyə işçiləri də öz peşəsi, canı, qanı ilə döyüş meydanında olmuş, yaralı hərbçilərə, gecə-gündüz bilmədən, tibbi yardım etmişlər. Bir neçəsi qazi, bir neçəsi şəhid olmuşdur. Həmişə olduğu kimi, 8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində də Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin əməkdaşları II Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalmış tibb işçilərinin -

**Taryel Salmanovun, Mürsəl Kazımlının, Ceyhun İsayevin və Dmitriy Solnsevin ailələrini ziyarət etmişlər. Şəhidlərin ana və bacılarını, həyat yoldaşlarını, qız balalarını 8 mart münasibətilə təbrik etmişlər. Bildirmişlər ki, bu günü əmin-amanlıq şəraitində qeyd etməyimizə görə şəhid qardaşlarımıza borcluyuq.**

# "Hər bir Azərbaycan xanımı- Güclü xanımdır!"



**Azərbaycan Dövlət İqtisad Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) 8 Mart - Beynəlxalq Qadınlar Gününü bu ali məktəbin rəhbərliyinin iştirakı ilə keçirildi. Tədbiri açan THİK-in sədri İlkan Əliyev xanım müəllimləri və tələbə qızları əlamətdar gün münasibətilə təbrik etdi.**

Universitetin tələbələrlə iş üzrə prorektoru, iqtisad elmləri namizədi, dosent Səadət Qəndilova çıxış edərək qadınların cəmiyyətimizdə rolu barədə qısa məlumat verdi. Tələbə qızlara hələ ali məktəbdə özlərini cəmiyyətimizin gələcək layiqli vətəndaşı kimi hazırlamalarını tövsiyə etdi.

Çıxışını bu sözlərlə bitirdi: "Hər bir Azərbaycan xanımı - Güclü xanımdır!"

**Tədbirin sonunda xanım iştirakçılara təşəkkürnamə və hədiyyələr təqdim olundu.**

# Növbəti tədbirlər planı müəyyənləşdirildi



**Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsində (THİK) ictimai fəal tələbələrlə görüş olub. Görüşdə tələbələr THİK-in fəaliyyəti, həyata keçirilən layihələr və icra ediləcək işlər barədə məlumatlandırılıblar və bu məsələlər ətrafında diskussiya aparılıb. Qərara alınıb ki, növbəti fəaliyyət planı hazırlanarkən festivalların, intellektual oyunlarının, idman yarışlarının keçirilməsi nəzərdə tutulsun və bu tədbirlərdə tələbələrin kütləvi iştirakı təmin olunsun.**

THİK sədri Qoşqar İsmayılov görüşdə çıxış edib faydalı təkliflərə görə fəal ictimaiyyətçi tələbələrə təşəkkürünü bildirib.

## Rayon komitələri və ilk təşkilatlar

# Kollektivdə nüfuz qarşılıqlı fəaliyyət göstərməklə qazanılır



**Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Şəki Rayon Komitəsinin ilk təşkilatlarla əlaqəsi müəllimlərin, məktəblərin texniki işçilərinin rifah halının yaxşılaşmasına, əmək, sosial problemlərinin həllinə şərait yaratmaqla yanaşı, təhsilin inkişafına da təsir göstərir.**

Mən bunu öz məktəbimizin timsalında görürəm. Etiraf edim ki, istənilən vaxtda istənilən hadisəni qeyd etmək, hər hansı əlamətdar gün ilə bağlı tədbir keçirmək, hansısa üzvün problemini tam həll etmək bəzən ilk təşkilatların imkanları daxilində olmur. Belə məqamlarda böyük ümidlə Rayon Komitəsinə müraciət edirik, əksər hallarda da ümidimiz doğrulur. Məhz Rayon Komitəsinin dəstəyi ilə müəllimlərin peşə bayramını, dövlət, milli və dini bayramlarımızı qeyd etmişik. Bundan əlavə, idman yarışlarının, ali məktəbə daxil olan məzunlarımızla, rayon, respublika olimpiadalarında fəxri yer tutan şagirdlərimizlə görüşlərin təşkilində bizə yaxından kömək göstərilir. Öz vəsaiti hesabına Fəxri fərmanlar, diplomlar, kuboklar, qiymətli hədiyyələr təqdim edir. Bu günlərdə məktəbimizin rəsmxət müəllimi Sevil İbrahimovanın 65 yaşı tamam oldu. Sevil müəllimə əmək fəaliyyətinə 46 il əvvəl bizim məktəbdə başlamışdı.

Bu illər ərzində şəhərimizin sakinlərinin bir neçə nəslinin savadlanmasında, şəxsiyyət kimi yetişməsində aktiv fəaliyyət göstərmişdir. S.İbrahimova dəyərli məsləhətləri, nümunəvi davranışı ilə əsl pedaqoq kimi tanınıb. O həmçinin məktəb həmkarlar ittifaqı komitəsinin heyət üzvüdür. "Aktual problemlər" jurnalında elmi məqaləsi çap olunan Sevil müəllimə təhsil sahəsində göstərdiyi uğurlu fəaliyyətə görə 2018-ci il oktyabrın 4-də "Əməkdar müəllim" fəxri adına layiq görülüb.

**Təbii ki, S.İbrahimova kimi xidmətləri olan insan rayon həmkarlar ittifaqının diqqətindən kənarda qala bilməzdi. Rayon Komitəsinin sədri Ziyafət Xasiyeva Sevil müəllimə ilə keçirdiyimiz yubiley tədbirinə gəlib onun haqqında xoş sözlər söylədi. Şəxsən Fəxri Fərmanla təltif etdi, hədiyyələr bağışladı. Bax, beləcə, kollektiv arasında ilk təşkilatın nüfuzunu bir az da qaldırdı.**

**Arzu MƏMMƏDOVA,**
**Şəki Şəhər R. Əfəndiyeva adına 10 saylı tam orta məktəbin Həmkarlar İttifaqı Komitəsinin sədri**

# Ümummilli Liderin xatirəsinə həsr olunmuş turnir

*22 komandanın iştirakı ilə keçiriləcəyi nəzərdə tutulmuş bu idman tədbirinin aprelin əvvəllərində start götürəcəyi nəzərdə tutulub*



**Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı (DİİXİ) Respublika Komitəsi, pandemiya ilə bağlı son iki il istisna olmaqla, Ümummilli Lider Heydər Əliyevin doğum gününün ildönümlərini müxtəlif kütləvi tədbirlərlə qeyd edir. Belə tədbirlərdən biri də sahə həmkarlar ittifaqına üzv təşkilatların komandaları arasında minifutbol yarışlarıdır.**

Ulu Öndərin anadan olmasının 99-cu ildönümünə həsr ediləcək bu yarışlara Respublika Komitəsində yaradılmış təşkilat komitəsi martın 3-də ilk iclasını keçirmişdir. İclasda **AHİK sədrinin müavini Hikmət Osmanov** çıxış edərək demişdir ki, vətəndaşlarımızın mənəvi cəhətdən zənginləşməsi ilə yanaşı fiziki sağlamlığı da respublikamıza rəhbərlik etdiyi illərdə Ümummilli Liderin daim diqqət mərkəzində olmuşdur. İdmanın Azərbaycanda kütləvi hal alması üçün dövlət səviyyəsində hər cür şərait yaratmışdı. Bu diqqət və qayğıya minnətdarlıqla yanaşan idmançılar, nəsillər dəyişsə də, Ümummilli Liderin yubileylərini müxtəlif formatlı turnirlər, çempionatlarla qeyd edirlər.

**H.Osmanov qeyd etdi ki, idmançılarımız Ulu Öndərin adı ilə bağlı yarışlara məsuliyyətlə yanaşır, ən yaxşı idman nəticələri qazanmağa cəhd göstərirlər, yüksək idmançı mədəniyyəti nümayiş etdirirlər.**

AHİK sədrinin müavini əmin olduğunu bildirdi ki, bu yarışlarda da komandalar əzmkarlıqları və ədalətli oyunları ilə tamaşaçıların rəğbətini qazanacaqlar.

Tədbirdə DİİXİ Hİ Respublika Komitəsinin sədr müavini **Əbülfəz Mehtiyev**, Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin sədri **Nadir Əliyev** və yarışların hakimi **Feyzulla Feyzullayev** çıxış etdilər. Turnirin şərtləri, qaydaları və digər məsələlər barədə məlumat verdilər, iclasa dəvət olunmuş yarış iştirakçılarının suallarını cavablandırdılar.

Sonda püşkatma mərasimi keçirildi.

**Məlumat üçün deyək ki, aprel ayının əvvəllərində start götürəcəyi gözlənilən yarışlarda 22 komanda 4 qrup üzrə mübarizə aparacaq. Qalib komandalar DİİXİ Hİ Respublika Komitəsi tərəfindən mükafatlandırılacaq.**



**"Bu gün Azərbaycan qadınlarının həyatımızın bütün sahələrində uğurlu fəaliyyəti onların necə böyük bir qüvvəyə sahib olduqlarının təsdiqidir. Qadınlar elm sahəsində də aktiv iştirak edir, çalışdıqları strukturlara öz töhfələrini verirlər.**

**Respublikamızda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət qadın siyasəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. O, qadınların cəmiyyətdəki roluna və yerinə, onların dövlət idarəçiliyində təmsil olunmalarına diqqətlə yanaşır. Ölkəmizdə gender siyasətinin gücləndirilməsi, qadınların cəmiyyətdə rolunun yüksəldilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir".**

Bu sözləri müxbirimizə **AMEA Azad Həmkarlar İttifaqının (AHİ) sədri, professor Habil Qurbanov** dedi. Bildirdi ki, dövlətimizin gender siyasəti Milli Elmlər Akademiyası tərəfindən də dəstəklənir və təşviq olunur, alim xanımlara həsr olunmuş müxtəlif səpkili tədbirlər keçirməklə onlara olan sayğımızı göstərir və əməklərini stimullaşdırırıq.

# Həm sayğımızı göstərir, həm də stimullaşdırırıq

Habil müəllimin dediyi tədbirlərdən biri də 8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində AHİ-nin aparatında təşkil olunub. H.Qurbanov Aparatın qadın işçilərini təbrik edib və hər birinə bayram hədiyyələri verib.

**AMEA Azad Həmkarlar İttifaqının ilk təşkilatlarından olan Riyaziyyat və Mexanika, Fizika, Kataliz və Qeyri-Üzvi Kimya, İnformasiya Texnologiyaları, Arxeologiya, Etnoqrafiya və Antropologiya, Fəlsəfə və Sosiologiya, Radiasiya Problemləri, Torpaqşünaslıq və Aqrokimya, Memarlıq və İncəsənət, Neft və Qaz, Zoologiya, Tarix, Şərqşünaslıq, Milli Azərbaycan Tarixi Muzeyi, Fiziologiya, Geologiya və Geofizika, Coğrafiya institutları, Respublika Seysmoloji Xidmət Mərkəzi, AME-nin Rəyasət Heyəti, Şəki Regional Elmi Mərkəzinin Həmkarlar İttifaqı Komitəsi də xanım işçilərinin bayramlarını təbrik edib.**

# MÜƏLLİM XANIMLARIN ƏMƏYİ İKİQAT ÇOXDUR

**Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə struktur bölmələrin rəhbərliyində yer alan qadın əməkdaşlar ilə görüş keçirilib.**



Görüşü giriş sözü ilə açan ADPU-nun Həmkarlar İttifaqı Komitəsinin (HİK) sədri, dosent Vaqif Əliyev bildirib ki, ali məktəbimizdə bu mərasim artıq ənənə halını alıb. Universitet rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi personalın böyük hissəsini təşkil edən qadın əməkdaşlarımızı daim diqqətdə saxlayır.

**ADPU-nun rektoru, professor Cəfər Cəfərov qadın əməkdaşları əlamətdar bayram münasibətilə təbrik edərək bildirib ki, bu gün qadınlarımız cəmiyyət həyatının bütün sahələrində, xüsusilə təhsil sahəsində önəmli yer tuturlar. Xanımlarımızın ən böyük xidməti vətənpərvər, cəmiyyətimizə layiqli oğulları, qızları tərbiyə etmələridir. Müəllim xanımların bu baxımdan əməyi ikiqat çoxdur. Onlar həm də gənclərin elm, savad qazanmasına, şəxsiyyət kimi formalaşmasına töhfə verirlər. Biz Vətən müharibəsində igid övladlarımızın zəfərinə görə həm də analarımıza borcluyuq.**

Rektor iftixarla bildirdi ki, qadınlarımız təkcə qəhrəman övlad yetişdirməklə kifayətlənmir, lazım olanda özləri də qəhrəmanlıq göstərirlər. Nümunə kimi Vətən müharibəsində yeganə şəhid qadın Arəstə Baxışovanın adını çəkdi: "Belə bir gözəl insanın itkisi nə qədər ağır olsa da, iftixarla deyirəm ki, o, ADPU-nun nəzdində fəaliyyət göstərən Pedaqoji Kollecin məzunu olub. Bu xanımın ruhu həmişə bizim üçün müqəddəs olacaq".

**Sonda Universitet Həmkarlar İttifaqı Komitəsi tərəfindən qadın əməkdaşlara hədiyyələr təqdim olundu.**

# Səmərəli fəaliyyətinə görə onlara qiymətli hədiyyələr təqdim edilib



**8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Fövqəladə Hallar Nazirliyi İşçilərinin Həmkarlar İttifaqı ilk təşkilat sədrləri və yubiley yaşı tamam olmuş bir qrup fəal qadın üzvlərinin iştirakı ilə onlayn tədbir keçirib.**

Tədbiri giriş sözü ilə **FHN İşçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov** açaraq Nazirliyin qadın əməkdaşlarını bayram münasibətilə təbrik edib. O, bu əlamətdar günün tarixindən bəhs edib, ölkəmizdə həyata keçirilən qadın siyasəti haqqında danışıb.

**Deyib ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident cənab İlham Əliyevin uğurla davam etdirdiyi mütərəqqi siyasi kursun ayrılmaz tərkib hissəsi kimi qadınların sosial-iqtisadi, siyasi həyatın bütün sferalarında fəaliyyətlərini yüksək səviyyədə həyata keçirməsi, öz potensiallarını sərbəst, səmərəli şəkildə reallaşdırmaları, onların cəmiyyətdəki rolunun artırılması və gender bərabərliyinin təmin olunması istiqamətində mühüm işlər görülüb. Qadınlarımız yaradılmış bütün imkanlardan istifadə edərək təhsil alır, ictimai-siyasi, mədəni proseslərdə iştirak edir, dövlət qurumlarında və özəl sektorda fəaliyyət göstərir, məsul vəzifələrə irəli çəkilirlər. Onlar öz səmərəli fəaliyyətləri ilə gənc nəslin yüksək səviyyəli, fəal mövqeli, xalqına, dövlətinə sadiq vətəndaşlar kimi yetişməsində misilsiz rol oynayır, insanların sağlamlıqlarının qorunmasına, mədəniyyətimizin inkişafına böyük töhfələr verirlər.**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın səmərəli fəaliyyətindən söz açan M.İsmayılov onun təşəbbüsü və təşkilatçılığı ilə ölkə daxilində, eyni zamanda xaricdə xalqımızın və ölkəmizin maraqları naminə həyata keçirilən genişmiqyaslı işlərin əhəmiyyətindən danışıb.

M.İsmayılov bildirib ki, 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə işğaldan azad olunmuş ərazilərin müəyyən bir hissəsində FHN İşçilərinin Həmkarlar İttifaqının maliyyə vəsaiti hesabına 44 günlük Vətən müharibəsində canlarını Vətən uğrunda fəda vermiş şəhidlərin analarının və Nazirliyin qadın əməkdaşlarının sayına uyğun miqdarda Qarabağ Dirçəliş Fondu vasitəsilə ağacəkmə aksiyasını həyata keçirmək təklifi həmin fondla razılaşdırılıb.

**Sonda Fövqəladə Hallar Nazirliyinin regional mərkəzləri və qurumlarında fəaliyyət göstərən həmkarlar ittifaqı komitələrinin qadın sədrlərinə və ittifaqın üzvü olan bir qrup yubilyar qadına qiymətli hədiyyələr təqdim edilib.**

# Müəssisənin uğurlarında xidmətləri yüksək qiymətləndirilib



**Kənd Təsərrüfatı Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin digər üzv təşkilatları kimi "P-Aqro" MMC-nin Həmkarlar İtttifaqı Komitəsi də 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirmişdir.**

**Komitənin əməkdaşları Biləsuvar Pambıq Emalı Zavodunda qadın işçilərlə görüşmüşlər. Onları təbrik etmişlər. Müəssisənin uğurlarında xidmətlərini yüksək qiymətləndirmişlər. Demişlər ki, həmkarlar ittifaqı həmişə olduğu kimi, gələcəkdə də qadın işçilərin əməyinin, sosial hüquqlarının qorunması üçün səylərini əsirgəməyəcək.**

# Hədiyyə: "Bravo"dan alış-veriş kartları




**Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin əməkdaşları və üzv təşkilatlarının sədrləri 44 günlük Vətən müharibəsində şəhid olmuş rabitəçilərin - Rəhimov Rəşad İlqar oğlunun, Orucov Nail Rəfail oğlunun, Ulubəyov Nurəhməd Hacıbəy oğlunun, Qarayev Elnur Qalib oğlunun, Qasımov Şəhriyar Vəzir oğlunun analarına və həyat yoldaşlarına 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə hədiyyələr təqdim etmiş, onları təbrik etmişlər.**

Qarşıdan gələn Novruz bayramı ilə əlaqədar olaraq rabitəçi şəhid ailələrinə, hər biri 300 azn olmaqla, "Bravo" marketlər şəbəkəsində alış-veriş üçün hədiyyə kartları təqdim olunmuşdur.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

# Xanım direktorlara bayram hədiyyələri verildi

**Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Zərdab Rayon Komitəsi və rayon təhsil şöbəsi 8 Mart-Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirib. Tədbirdə çıxış edən Rayon Komitəsinin sədri Etibar Niftəliyev bildirib ki, qadınlar rayonumuzun ictimai həyatında, təsərrüfat və təhsil sahələrində fəal iştirak edirlər. Məhz bu fəallığın nəticəsidir ki, onlara etimad göstərilir, rəhbər vəzifələrə seçilir və ya təyin olunurlar.**



Sədr nümunə kimi rayon təhsil sahəsini göstərdi. Dedi ki, bu gün məktəb direktorlarının xeyli hissəsi məhz zərif cinsin nümayəndələridir. Onlar işlərinin öhdəsindən yüksək peşəkarlıqla gəlirlər. Bu direktor xanımların bir çoxu tədbirimizdə iştirak edir. İcazənizlə onları təbrik edir, hər birinə daha böyük uğurlar arzulayıram.

**Tədbirin sonunda xanım direktorlara rayon təhsil şöbəsinin və həmkarlar ittifaqı komitəsinin bayram hədiyyələri təqdim olundu.**

# Regionda baş verən hadisələrin ölkəmizə təsiri



## Ərzaq təhlükəsizliyini qorumaq üçün vergi-gömrük güzəştləri

**Rusiya ilə Ukrayna arasında gedən müharibə digər ölkələrin iqtisadiyyatına da təsir göstərməkdədir. Bu təsir özünü münaqişədə olan tərəflərdən qida məhsulları idxal edən ölkələrdə, o cümlədən Azərbaycanda özünü daha çox göstərməkdədir. Gözlənilən ərzaq məhsulları qıtlığının qarşısını necə almaq və ya ən azı necə yüngülləşdirməli? Digər idxalçı ölkələr kimi, Azərbaycan hökuməti də bu barədə düşünür və müvafiq addımlar atmağı planlaşdırır. Bu addımlardan ilkini, ən vacibi idxal edilən məhsulların əhəmiyyətli hissəsini yerli istehsalla əvəzləməkdir.Qeyd edək ki, il ərzində Azərbaycana 2 milyard dollar həcmində ərzaq malları idxal edilir.**

Kənd təsərrüfatı məhsulları istehsalının və satışının stimullaşdırılması, habelə ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə müxtəlif dövlət dəstəyi tədbirləri, güzəştli kreditlərin və subsidiyaların həcminin artırılması, eyni zamanda vergi təşviqlərinin verilməsi əsas prioritet kimi götürüləcək.

**Qlobal bazarlarda və regionda baş verən son proseslərlə əlaqədar hökumət ilk növbədə birinci strateji ərzaq məhsulu olan ərzaqlıq buğdanın idxal qiymətinin artmasının ölkə daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılmasına daha çox diqqət yönəldib. Nazirlər Kabineti tərəfindən müvafiq iqtisadi qurumlara ərzaqlıq buğda ehtiyatının yaradılması və dünya birjalarında buğda qiymətlərinin ölkədaxili buğda qiymətlərinə təsirinin azaldılması üçün müvafiq tənzimləmə və nəzarət üzrə dayanıqlı mexanizmin formalaşdırılmasına dair təkliflərin hazırlanması tapşırılıb. Təchizatçı ölkələrlə maksimum sərfəli nəticələr əldə edilməsi, əlavə ixrac rüsumlarının təsirlərindən sığortalanması, daşıma və logistika xərclərinin optimallaşdırılması əsas təkliflərdən biridir. Məsələn, əsas buğda təchizatçısı olan Rusiya hökuməti 2021-ci ildən etibarən buğda, qarğıdalı və arpa üçün daimi "taxıl dempferi" mexanizmi tətbiq edir ki, bu da buğdanın hər tonuna əlavə 50 avro məbləğində gömrük rüsumu deməkdir. Beləliklə, "üzən rüsum" nəticəsində qiymətlər ötən il ən azı 15 faiz bahalaşıbdır. Rusiyanın 2022-ci ildən yeni "taxıl dempferi" tətbiq edəcəyi gözlənilir, belə halda buğdanın əlavə qiymət artımlarına məruz qalması istisna deyil. Azərbaycan bu ölkə ilə iqtisadi sahədə qarşılıqlı əməkdaşlıq və güzəşt tarifləri mexanizmi əsasında əlavə demferdən qorunmaq istəyir.**

Hökumət xarici risk faktoru ilə yanaşı, buğdaya görə daxili istehsalda da əlverişli tədarük qiymətlərinin tətbiq edilməsi mexanizminin təkmilləşdirilməsini nəzərdən keçirir. Belə ki, yerli təsərrüfatlar tərəfindən istehsal olunan buğdanın keyfiyyət göstəricilərinə görə subsidiya verilməsi ilə bağlı təklif edilən mexanizmin əvəzinə Dövlət Taxıl Fondu tərəfindən yerli fermerlərin, xüsusilə də iri təsərrüfatların istehsal etdikləri buğdaya görə əlverişli tədarük qiymətlərinin tətbiq edilməsi və dövlət-özəl tərəfdaşlığı mexanizmləri hesabına ərzaqlıq buğda istehsalının artırılması tədbirlərinin görülməsi nəzərdə tutulur.

**Hökumət yerli istehsalı stimullaşdırmaq üçün buğda toxumunun istehsalı ilə məşğul olan dövlət və özəl toxumçuluq təsərrüfatlarına dövlət vəsaiti hesabına idxal olunan yüksək reproduksiyalı buğda toxumunun və buğda istehsalçılarına mineral gübrələrin satış qiymətinin dövlət tərəfindən verilən güzəştlərin əhatəsini artırmağı da düşünür.**

Hazırda taxıl idxalçıları ƏDV-dən azaddır. Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə buğda idxal və satışına, buğda ununun və çörəyin istehsalı və satışına tətbiq olunan ƏDV-dən azadolma növbəti dövrdə yenidən artırılıması vacib sayılır. Bundan başqa, Vergi Məcəlləsində edilmiş dəyişikliklər nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində istifadə edilən və lizinq müqaviləsinin obyekti olan əksər maşın və texniki vasitələr, idxal rüsumundan və ƏDV-dən azaddırlar. Həmçinin Vergi Məcəlləsinin müddəalarına əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları özlərinin istehsal etdikləri məhsulların satışı üzrə dövriyyələr mənfəət (gəlir) vergisindən, ƏDV-dən, sadələşdirilmiş sistem üzrə vergidən və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərin əmlak vergisini ödəməkdən azad ediliblər.

Dövlət vergi-gömrük stimulları ilə yanaşı, çörəkbişirmə müəssisələrinə, buğda almaq üçün ən aşağı faizlə kreditlər, hətta bəzi hallarda, ümumiyyətlə, faizsiz kreditlər vermək niyyətini də gizlətmir. Güzəştli kreditlərə çıxış imkanlarının yaxşılaşdırılması ilə bağlı işlək mexanizmin qurulması əsas planlardan biridir. Hazırda ölkədaxili qiymətlərin artmasının qarşısını almaq məqsədilə un tədarükü müəssisələrinin sahiblərinə hər tona görə 35 manat subsidiya verilir. Bu da qiymətlərin sabitliyini təmin edən əsas amillərdən biridir. Qarşıdakı dövrdə vəziyyətə uyğun olaraq həmin subsidiyaların məbləğinin də artırılmasına baxıla bilər. Yeri gəlmişkən, antiinhisar qanunvericliyini pozan, qiymətləri süni şəkildə artıran və çörəyin çəkisini azaldan sahibkarlar riskli vergi ödəyicisi qrupuna daxil ediləcək və riskli əməliyyatların meyarlarına uyğun olaraq subsidiyalardan kənarda qalacaq.

**Hökumətin qlobal bazar proseslərinə əsasən, qarşıdakı aylarda digər əsas qida mallarının dayanıqlılığını qorumaq məqsədilə həm vergi güzəştlərinin, həm də subsidiyaların verilməsi istiqamətində qərarlar qəbul edəcəyi nəzərdə tutulur.**

**Elbrus CƏFƏROV**

**Rusiya-Ukrayna arasında gedən müharibə Qərb ölkələrinin geniş sanksiyalar tətbiq etməsi ilə müşahidə olunur. Sanksiyalar, demək olar ki, bütün sferaları əhatə edir: maliyyə, sənaye, energetika, texnologiyalar, nəqliyyat, informasiya məkanı, turizm, idman, hətta mədəniyyət... Ən vacibi, əlbəttə ki, maliyyədir, çünki bütün digər sahələrin kökündə, bünövrəsində məhz maliyyə dayanır. Bəs Rusiyaya qoyulan sanksiyaların Azərbaycan iqtisadiyyatına təsirləri necə olacaq? Bu və ya digər suallarımızı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Vahid Əhmədov, Vüqar Bayramov, iqtisadçı-ekspert Rəşad Həsənov cavablandırdılar.**

## Rusiyaya qoyulan sanksiyaların Azərbaycan iqtisadiyyatına təsirləri...



Vahid Əhmədov



Vüqar Bayramov



Rəşad Həsənov

***Millət vəkili Vahid Əhmədov*** **bildirdi ki, Rusiyaya qoyulmuş sanksiyaların müddətindən çox şey asılıdır. Ola bilər ki, müharibə dayansın, sanksiyalar qısamüddətli olsun. Düzdür, mən şəxsən hadisələrin gedişini izləyən bir müşahidəçi kimi, buna ümid etmirəm. Amma müharibə uzanarsa, əlbəttə ki, bu sanksiyalar nəinki Rusiya dövlətinə, bu ölkə ilə ticarət əlaqələri olan istənilən dövlətə, bir sözlə, dünya bazarına öz mənfi təsirini göstərəcək. Azərbaycanın da Rusiya ilə təxminən 3.2 milyard dollar ticarət dövriyyəsi var. Belə ki, biz onlardan 2 milyard dollardan çox məhsul alır, 1 milyard dollara yaxın məhsul isə ixrac edirik. Əsas da Rusiyadan kifayət qədər buğda, taxıl idxal edilir. Hesab edirəm ki, ölkədə taxılın qiymətində ciddi artım müşahidə olunmayacaq. Çünki taxıl idxal etdiyimiz Pakistan, Qazaxıstan və s. dövlətlər də var.**

Millət vəkili qeyd etdi ki, mövcud vəziyyətlə əlaqədar dünya bazarında neftin qiyməti də qalxıb. Bu, Azərbaycan üçün, əlbəttə, yaxşı haldır, çünki dövlət büdcəsinə əlavə vəsait daxil olur. Amma bu vəziyyət dəyişkən ola bilər. Müharibə dövrü, ümumiyyətlə, xüsusi mərhələdir. Həmin mərhələ gec-tez bitəcək, heç bir müharibə əbədi davam etmir. Lakin baş verə biləcək hər hansı təzyiqlərə qarşı ölkə daxilində ərzaq və digər məhsulların qiymətinin sabit saxlanılması üçün biz həmişə deyirik, amma əməl etmirik, idxaldan asılılığı azaltmaq çox vacibdir. Yerli istehsala üstünlük verməliyik.

Vahid müəllim bildirdi ki, hazırda dünyada gedən proseslərə uyğun proqnoz vermək çətinləşib. Rusiyada sürətlə artan işsizlik nəticəsində orada işləyən soydaşlarımızın ölkəyə böyük axını da gözləniləndir. Bunun birinci mənfi təsiri o ola bilər ki, onlar ölkəyə ailələrini saxlamaq, kömək etmək və yaxud başqa səbəblərdən hər ay təxminən 80-100 milyona qədər vəsait köçürürlər, bu köçürmələr kəsilə bilər. Daha sonra isə iş təminatı və s. problemlər yarana bilər ki, hökumət də bu sahədə baş verə biləcək hər hansı prosesləri qabaqlamaq üçün tədbirlər fikirləşir. Belə hal baş verərsə, onlar üçün lazımi şərait yaradılacaq.

***Millət vəkili Vüqar Bayramov*** dedi ki, Rusiya Azərbaycan idxalında və qeyri-neft sektorunda əsas ticarət tərəfdaşlarından biridir. Bütövlükdə qeyri-neft ixracatımızın 32.3 faizi Rusiyanın payına düşür. İdxal etdiyimiz məhsulların böyük qismi qeyri-neft və aqrar məhsullardır: "Bir neçə gün öncə də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən strateji məhsullar üzrə ehtiyatların artırılması ilə bağlı xüsusi göstəriş oldu. Bu isə ondan xəbər verir ki, ölkəmiz praktik olaraq növbəti mərhələdə dünya bazarında baş verən dəyişikliklərə, qiymət artımlarına hazır olmağa çalışır. Çünki artımların və bir sıra ərzaq məhsullarında qıtlığın olacağı gözlənilir. Bu baxımdan tələbin daha çox yerli istehsal hesabına ödənilməsi kreativ olaraq qalmaqdadır".

**V. Bayramov Rusiyaya tətbiq olunan genişmiqyaslı sanksiyaların ölkəmiz üçün müsbət tərəflərindən də danışdı. Qeyd etdi ki, sanksiyalara qoşulmayan ölkələrin bu istiqamətdə müəyyən imkan və fürsətləri olacaq. Məsələn, Rusiyanın Azərbaycanın hava məkanından daha çox istifadə etməsi ehtimalı var. Bu da gəlirlərimizə müsbət təsir edəcək. Rusiyanın sanksiyaya qoşulduğu ölkələrdən aldığı məhsulların bir hissəsinin Azərbaycan iş adamları və fermerləri tərəfindən Rusiyaya ixrac edilməsi də gözləniləndir.**

Mövzu ilə bağlı ***iqtisadçı-ekspert Rəşad Həsənov*** isə bildirdi ki, artıq Rusiya iqtisadiyyatının çökməsinin şahidi oluruq, bunun da təsirləri kimi Azərbaycana miqrasiya prosesi sürətlənir. Müharibənin miqrasiya sahəsinə ciddi təzyiqləri görünür. Çünki həm Ukrayna, həm də Rusiya azərbaycanlıların kütləvi şəkildə məskunlaşdığı ölkələrdəndir. Ölkədən miqrasiya edənlərin təxminən 70%-i bu iki ölkəni seçib. Təkcə 1990-2021- ci illərdə hər iki ölkəyə 320 mindən artıq azərbaycanlı daimi yaşamaq üçün gedib. Ümumilikdə isə təqribən 3 milyon 500 min Azərbaycan əsilli vətəndaş Rusiya və Ukraynada yaşayır.

**2014-cü il Krım hadisələrindən sonrakı tendensiya və Rusiya iqtisadiyyatında baş verən resessiya zamanı miqrantların davranışı onu göstərdi ki, böhranlar olduğu zaman azərbaycanlıların geri dönüşü istiqamətində ehtimallar artır və onlar geri dönmək məcburiyyətində qalırlar. Ümumiyyətlə, Azərbaycandan miqrasiya edənlərin 85%-i əmək qabiliyyətli əhalidir. Soydaşlarımızın əhəmiyyətli hissəsi isə işləmək üçün gedir və iş axtarışındadırlar. Onlar orada işləyə bilmirlərsə, pul qazana bilmirlərsə, bu, o deməkdir ki, onlar üçün orada qalmağın heç bir əhəmiyyəti yoxdur və geri dönmək məcburiyyətində qalırlar. Bugünki şərtlər daxilində əmək bazarında vəziyyət olduqca çətinləşib. Həmyerlilərilmizin qazandığı pullar azalır, ən yaxşı halda, sadəcə, gündəlik qazanc əldə etmək üçün işləyirlər. Hesab edirəm ki, onların da əhəmiyyətli hissəsi geri dönməklə bağlı qərar qəbul edəcək. Bu da Azərbaycana miqrasiya prosesini sürətləndirəcək. Miqrasiyanın böyüklüyü isə prosesin nə qədər dərinləşməsindən asılı olacaq. Çünki statistika hər gün dəyişir, sanksiyalar hər gün daha da dərinləşir və onun təsirləri də hər gün daha da kəskin xarakter almaqdadır.**

R. Həsənov bildirdi ki, Rusiyadakı mövcud vəziyyət, tətbiq olunan genişmiqyaslı sanksiyalar Azərbaycana pul köçürmələrinin də azalmasına gətirib çıxarır. Çünki bu istiqamətdə müxtəlif qiymətləndirmələr var. Mərkəzi Bankın məlumatlarına görə, təxminən 1 milyard dollar ətrafında Rusiyadan Azərbaycana vəsait gəlsə də, alternativ qiymətləndirmələr göstərir ki, vətəndaşlarımız fərqli kanallar, fərqli bank hesabları, yaxınları, özləri səfər edərkən və yaxud azərbaycanlıların kütləvi məskunlaşdığı bölgələrdəki xüsusi məntəqələr yolu ilə pul göndərirlər. Yəni alternativ qiymətləndirmələr göstərir ki, təxminən il ərzində Azərbaycana ən azı 3 milyard dollardan artıq pul vəsaiti daxil olur, bu isə əhalinin gəlirlərinin 8%-nə yaxındır.

**2021-ci ildə Azərbaycanın ümumi gəliri 54 milyard manat olub, 8-9%-i isə Rusiyadan gələn pul köçürmələri hesabına formalaşıb ki, bunun da bölgələr üzrə nisbəti çox fərqlidir. Məsələn, əhalinin qazandığı ailə büdcəsinin Cənub bölgəsində hər 100 manatdan 20 manatı, Gəncə-Qazax bölgəsində isə 12-13 manatı Rusiyadan köçürülən pullardan formalaşırdı.**

R. Həsənov əlavə etdi ki, gəlirlərin azalması o deməkdir ki, Azərbaycanda yoxsullaşma artacaq, ölkəyə gələn işsiz insanlar ölkədə işsizlik səviyyəsinin artmasına səbəb olacaq. Təəssüflər olsun ki, bu proses eyni zamanda əmək bazarında təklifi artırmaqla, gələcəkdə əmək bazarında əməkhaqqı səviyyəsinin aşağı düşməsinə gətirib çıxardan tendensiyalara səbəb ola bilər.

**R. Həsənov onu da əlavə etdi ki, bu, Azərbaycanın iradəsindən kənarda baş verən prosesdir. Dövlətimiz öz vətəndaşlarından imtina edə bilməz. Təbii ki, Azərbaycan daha mütərəqqi sürətlə inkişaf edən iqtisadi model qurmalıdır və bu da uzunmüddətli prosesdir. İqtisadiyyatın liberallaşdırılması yaranmış təzyiqləri qismən neytrallaşdıra bilər. Buraya gələn əmək qüvvəsinin iqtisadiyyatda həzm edilməsi və yerləşdirilməsi yoxsulluq təzyiqlərinin bir qisminin hansısa formada konpensasiya edilməsi üçün imkan yarada bilər.**

**Əsli TELMANQIZI**
**Gülöyşə MƏMMƏDLİ**




## Azərbaycan Respublikası vətəndaşlarının və ölkəmizdə yaşayan vətəndaşlığı olmayan şəxslərin pensiya almaq hüququ necə təmin edilir?

**Nofəl ƏLƏKBƏROV,
Bakı şəhəri.**

- "Əmək pensiyaları haqqında" qanunun 3-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşları həmin qanunda göstərilən hallarda əmək pensiyası təminatı hüququna malikdirlər.

Azərbaycan Respublikası ərazisində daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin də adıçəkilən qanunla nəzərdə tutulmuş şərtlərlə Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər əsaslarla əmək pensiyası təminatı hüququ vardır.

Bu qanunda Azərbaycan Respublikası Silahlı Qüvvələrində və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) xidmət edən hərbi rütbəli şəxslər üçün nəzərdə tutulan şəxslərin pensiya təminatı ilə bağlı müddəalar Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarında xidmət edən xüsusi rütbəli şəxslərə də şamil edilir.

Azərbaycan Respublikasının keçmiş Prezidentinin pensiya təminatı məsələləri "Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə tənzimlənir.

## Etibar edilmişi başqa şəxsə etibaretmə mümkündürmü?

**Natiq SƏMƏDOV,
Sumqayıt şəhəri.**

- Mülki Məcəllənin 363.3-cü maddəsinə əsasən, etibarnamə verilmiş şəxs vəkil edildiyi hərəkətləri şəxsən özü etməlidir. O, etibarnamə ilə buna vəkil edildikdə və ya etibarnaməni verənin mənafelərinin qorunması üçün şəraitin buna məcbur etdiyi halda həmin hərəkətlərin icrasını başqa şəxsə etibar edə bilər.

Mülki qanunvericiliyin tələblərinə görə,səlahiyyətləri başqa şəxsə verən bunu etibarnaməni verənə bildirməli və səlahiyyətləri verdiyi şəxs barəsində ona lazımi məlumat verməlidir. Bu vəzifənin icra edilməməsi səlahiyyəti verənin üzərinə səlahiyyətləri verdiyi şəxsin hərəkətləri üçün öz hərəkətləri üçün olduğu kimi məsuliyyət qoyur.

Etibar edilmişi başqasına etibaretmə qaydasında verilmiş etibarnamənin qüvvədə olma müddəti onun verilməsi üçün əsas götürülmüş etibarnamənin qüvvədə olma müddətindən artıq ola bilməz.

## Öz hərəkətlərinin mənasını başa düşə bilməyən fiziki şəxs törətdiyi mülki hüquq pozuntusu üçün məsuliyyət daşıyırmı?

**Nəcəf MURADOV,
Şabran rayonu.**

- Mülki Məcəlləyə əsasən, fəaliyyət qabiliyyətli fiziki şəxs və ya on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayan öz hərəkətlərinin mənasını başa düşə və ya onlara rəhbərlik edə bilmədiyi vəziyyətdə mülki hüquq pozuntusu törətdikdə vurduğu zərər üçün məsuliyyət daşımır.

Əgər zərərçəkənin həyatına və ya sağlamlığına zərər vurulmuşdursa, məhkəmə zərərçəkənin və zərərvuranın əmlak vəziyyətini, habelə digər halları nəzərə almaqla, zərərin əvəzini tamamilə və ya qismən ödəmək vəzifəsini zərərvuranın üzərinə qoya bilər.

Mülki hüquq pozuntusu törətmiş şəxs spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən istifadə etməklə və ya başqa üsulla özünü hərəkətlərinin mənasını başa düşə və ya onlara rəhbərlik edə bilmədiyi vəziyyətə özü gətirdikdə məsuliyyətdən azad edilmir.

Əgər psixi pozuntu nəticəsində öz hərəkətlərinin mənasını başa düşə və ya onlara rəhbərlik edə bilməyən şəxs mülki hüquq pozuntusu törətmişdirsə, məhkəmə zərərin əvəzini ödəmək vəzifəsini həmin şəxslə birlikdə yaşayan, zərərvuranın psixi pozuntusundan xəbərdar olmuş, lakin onun fəaliyyət qabiliyyəti olmayan sayılması məsələsini qaldırmamış arvadının (ərinin), valideynlərinin, yetkinlik yaşına çatmış uşaqlarının öhdəsinə qoya bilər.

## Nikah müqaviləsi nə vaxt, hansı qaydada bağlanılır, müqaviləyə hansı məsələləri daxil etmək olar?

**Sevda TAĞIYEVA,
Gəncə şəhəri.**

- Ailə qanunvericiliyinə görə, nikah müqaviləsi nikahın bağlanmasının dövlət qeydiyyatına qədər, eləcə də nikah dövründə istənilən vaxtda bağlana bilər.

Amma nikahın bağlanmasının dövlət qeydiyyatına qədər bağlanmış nikah müqaviləsi nikahın bağlanmasının dövlət qeydiyyatına alındığı gündən qüvvəyə minir.

Nikah müqaviləsi yazılı formada bağlanır və notariat qaydasında təsdiq olunur.

Nikah müqaviləsi nikaha daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və (və ya) nikah pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən saziş olduğuna görə, bumüqavilə ilə ər-arvad birgə mülkiyyətin qanunla müəyyən olunmuş rejimini dəyişərək, ümumi əmlaka, onun ayrı-ayrı növlərinə və ya ər-arvadın hər birinin əmlakına birgə, paylı və ya ayrıca mülkiyyət rejimi tətbiq edə bilərlər.

Nikah müqaviləsi ər-arvadın mövcud olan əmlakı ilə yanaşı, həm də və gələcəkdə əldə edəcəkləri əmlaka dair də bağlana bilər.

Ər-arvad nikah müqaviləsində bir-birinin qarşılıqlı saxlanması, bir-birinin gəlirlərində iştirak üsulları, hər birinin ailə xərclərində iştirakı qaydası ilə bağlı hüquq və vəzifələrini, nikah pozulduqda hər birinə düşəcək əmlakı və ər-arvadın əmlak münasibətlərinə dair hər hansı başqa müddəanı müəyyənləşdirmək hüququna malikdirlər.

Nikah müqaviləsində nəzərdə tutulmuş hüquq və vəzifələr müəyyən müddətlərlə məhdudlaşa bilər, müxtəlif şəraitin yaranıb-yaranmamasından asılı ola bilər.

Onu da qeyd etmək lazımdır ki, Ailə Məcəlləsinə əsasən, nikah müqaviləsində ər-arvadın hüquq və fəaliyyət qabiliyyətini, öz hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququnu, uşaqlara münasibətdə hüquq və vəzifələrini, eləcə də ər-arvad arasındakı şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən, ehtiyacı olan və əmək qabiliyyəti olmayan ərin (arvadın) saxlanılması üçün vəsait almaq hüququnu məhdudlaşdıran, ər-arvaddan birini çox əlverişsiz vəziyyətə salan və ailə qanunvericiliyinin əsaslarına zidd olan müddəalar nəzərdə tutula bilməz.

## Daşınmaz dövlət əmlakının icarə müqaviləsinin müddətinin uzadılması üçün hansı sənədlər tələb olunur?

**Gülnaz MEHDİYEVA,
Şirvan şəhəri.**

-Daşınmaz dövlət əmlakının icarə müqaviləsinin müddətinin uzadılması üçün bu sənədlər tələb olunur:

- Ərizə
- İcarə müqaviləsinin əsli
- Fiziki şəxsin şəxsiyyət vəsiqəsinin surəti (hüquqi şəxsin təsis sənədlərinin notarial qaydada təsdiq edilmiş surəti)
- İcarə haqqının müvafiq hesablara ödənilməsini təsdiq edən sənəd.

## Yeddi uşaq anasıyam. Bilmək istəyirəm ki, hər uşağa görə bu il mənə ayda neçə manat ödəniləcək?

**Gülxanım MƏMMƏDOVA,
Tovuz rayonu.**

-"Beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləğinin müəyyən edilməsi haqqında" ölkə Prezidentinin 27 dekabr 2013-cü il tarixli 72 nömrəli Fərmanına əsasən, beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləği hər uşaq üçün 70 (yetmiş) manat müəyyən edilmişdir. Bu il Siz hər uşaq üçün 70 (yetmiş) manat aylıq müavinət alacaqsınız.

## 20 Yanvar şəhidinin ailəsi üçün təqaüd verilirmi?

**Lalə QASIMOVA,
Şəki şəhəri.**

- Ölkə Prezidentinin "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında 19 yanvar 2006-cı il tarixli 350 saylı Fərmanı ilə 1990-cı ilin yanvar faciəsi zamanı şəhid olmuş hər bir şəxsin ailəsinə ayda 500 (beş yüz)) manat məbləğində "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilmişdir.

## Kollektiv əmək mübahisəsi nədir və ora hansı məsələlər aiddir?

**Fərid HACIYEV,
Bakı şəhəri.**

- Kollektiv əmək mübahisəsi - kollektiv tələblərdən törəyən fikir ayrılığıdır.

Kollektiv tələblər - kollektiv müqavilələrin, sazişlərin bağlanması, onlara dəyişikliklərin edilməsi və icrası, habelə digər əmək, sosial və iqtisadi məsələlərlə bağlı işçilərin, ya da həmkarlar ittifaqları orqanının işəgötürən, onların birlikləri və ya müvafiq icra hakimiyyəti orqanları qarşısında irəli sürdüyü tələblərdir.

Əmək Məcəlləsi ilə aşağıdakı məsələlərin tənzimlənməsi zamanı yaranan kollektiv əmək mübahisələrinin həlli nizama salınır:

a) kollektiv müqavilələrin və sazişlərin bağlanması üçün danışıqların aparılması;

b) kollektiv müqavilələrin və sazişlərin bağlanması;

c) qüvvədə olan kollektiv müqavilələrə və ya sazişlərə dəyişikliklərin, əlavələrin edilməsi;

ç) kollektiv müqavilələrin və sazişlərin icrasının təmin edilməsi;

d) kollektiv üzvlərinin mənafelərinin təmin olunması üçün digər əmək və sosial, iqtisadi məsələlərin həll edilməsi.

## Peşə təhsili hansı qruplara görə müəyyənləşdirilir və neçə il müddətində davam edir?

**Nailə QURBANOVA,
Bakı şəhəri.**

- Peşə təhsili müəssisələrində təhsil müddəti aşağıdakı qruplara görə müəyyənləşdirilir:

- ümumi orta təhsil bazasından qəbul olunmuş və ilk peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 1 il, texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 2 il;
- tam orta təhsil bazasından qəbul olunmuş və ilk peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 6 ay, texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 1 il;
- ümumi orta təhsil bazasından qəbul olunmuş və texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil alanlar üçün təşkil edilən qruplarda - 3 il;
- ümumi orta təhsil bazasından qəbul olunmuş və yüksək texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 4 il;
- tam orta təhsil bazasından qəbul olunmuş və yüksək texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 3 il.
- ümumi orta və tam orta təhsil səviyyəsini bitirib istehsalatda və ya digər iş sahələrində müəyyən nəzəri və praktiki peşə bacarıqları qazanmış şəxslər üçün işəgötürənlərin və fərdlərin öz vəsaiti hesabına sifarişlər əsasında həmin və ya digər peşənin öyrənilməsi, ixtisasın artırılması və yenidənhazırlanma üzrə kurslarda təhsil müddəti 6 aya qədərdir.

Ali təhsil almış şəxslərin də peşə təhsili almaq hüququ vardır.

## Neçə növ sığorta ödənişi var?

**Tahir SƏLİMOV,
Ucar rayonu.**

- Faydalanan (xeyrinə icbari sığorta müqaviləsi bağlanılmış) şəxslərə verilən sığorta ödənişinin 3 növü var:

- aylıq sığorta ödənişi;
- birdəfəlik sığorta ödənişi;
- əlavə sığorta ödənişi.

Aylıq sığorta ödənişi sığorta hadisəsi baş verdikdə sığortaolunanın peşə əmək qabiliyyətinin itirilməsi ilə bağlı itirilmiş aylıq əməkhaqqı əvəzində faydalanan şəxsə verilən pul təzminatıdır.

Birdəfəlik sığorta ödənişi aylıq sığorta ödənişi məbləğlərinin cəm halda birdəfəlik ödənilməsidir. Birdəfəlik sığorta ödənişi aşağıdakı hallarda verilir:

sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığortaolunanın əlilliyi növbəti müayinə müddəti göstərilmədən müəyyən edildikdə;

sığorta hadisəsi nəticəsində sığortaolunanın öldüyü halda;

sığorta hadisəsi nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi ilə əlaqədar aylıq sığorta ödənişini alan sığortaolunan həmin hadisənin birbaşa səbəbi olduğu sağlamlığın pozulması halından öldükdə.

Əlavə sığorta ödənişi sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığortaolunana həmin hadisənin birbaşa səbəbi olduğu hallarla əlaqədar müalicəyə, əlavə qidalanmaya, dərman alınmasına, protezləşdirməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, başqa peşəyə hazırlanmaya çəkdiyi xərclərinin əvəzinin ödənilməsinə görə verilən pul təzminatıdır.

Sığortaçı sığorta ödənişini müəyyən edilmiş müddətdə ödəmədikdə, hər gecikdirilmiş gün üçün sığorta ödənişi məbləğinin 0,1 faizi həcmində dəbbə pulu ödəyir ("İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanun- maddə 16).

## Ailə kəndli təsərrüfatlarında və ailə müəssisələrində əmək münasibətləri necə tənzimlənir?

**Firuz ŞƏMBƏTOV,
Bakı şəhəri, Buzovna qəsəbəsi.**

- Əmək Məcəlləsinin 258-ci maddəsinə əsasən, ailə kəndli təsərrüfatlarında və ailə müəssisələrində əmək münasibətləri bir qayda olaraq Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada yazılı formada əmək müqaviləsi bağlanılmaqla tənzimlənir. Bu təsərrüfatlarda və müəssisələrdə əmək müqaviləsi şifahi formada da bağlanıla bilər. Bu halda əmək münasibəti tərəflərdən birinin tələbi ilə rəsmiləşdirilməlidir. Əmək müqaviləsinin rəsmiləşdirilməsi ailə kəndli təsərrüfatı başçısının və ya ailə müəssisəsinin rəhbərinin (işəgötürənin) əmri, sərəncamı verilməklə və ya müvafiq qaydada tərtib edilmiş ailə kitabında (jurnalında) qeydiyyata salınmaqla həyata keçirilə bilər.

## Yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə və qeyri-yaşayış sahəsinin yaşayış sahəsinə keçirilməsi qanunla mümkündürmü?

**Etibar QULİYEV,
Bakı şəhəri.**

- Mənzil Məcəlləsinə əsasən, yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə və qeyri-yaşayış sahəsinin yaşayış sahəsinə keçirilməsinə həmin Məcəllənin və şəhərsalma haqqında qanunvericiliyin tələblərinin nəzərə alınması şərtilə yol verilir.

Çoxmənzilli binalarda mənzillərin qeyri-yaşayış sahələrinə keçirilməsinə o halda yol verilir ki, belə mənzil həmin binanın birinci mərtəbəsində yerləşsin. Digər mərtəbədə yerləşən mənzilin qeyri-yaşayış sahəsinə keçirilməsinə qeyri-yaşayış sahəsinə keçirilən mənzilin bilavasitə altında yerləşən sahələrin yaşayış sahələri olmadığı hallarda yol verilir.

Qeyri-yaşayış sahəsinin yaşayış sahəsinə keçirilməsinə o halda yol verilmir ki, belə sahə müəyyən edilmiş tələblərə cavab verməsin və ya bu sahənin müəyyən edilmiş tələblərə uyğunluğunu təmin etmək mümkün olmasın, yaxud bu sahəyə mülkiyyət hüquqları digər şəxslərin hüquqları ilə yüklü edildiyi halda xeyrinə yüklülük müəyyən edilmiş şəxslərin razılığı olmasın.

Yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə keçirilməsinə aşağıdakı hallarda yol verilmir:

1.Yaşayış sahəsindən qeyri-yaşayış sahəsinə keçirilən sahəyə gediş-gəliş yaşayış sahələrinə gediş-gəlişi təmin edən sahələrdən istifadə etmədən mümkün olmadıqda və ya belə gediş-gəlişi qurmağa texniki imkan olmadıqda.

2. Keçirilən sahə eyni zamanda mənzilin tərkib hissəsi kimi qaldıqda, yaxud həmin sahənin mülkiyyətçisi və ya başqa şəxs tərəfindən daimi yaşayış yeri kimi istifadə edildikdə.

3. Keçirilən sahəyə mülkiyyət hüquqları digər şəxslərin hüquqları ilə yüklü edilmiş olduqda (xeyrinə yüklülük qeydə alınmış şəxslərin yazılı razılığı olduğu hallar istisna olmaqla).

## Bir neçə istifadə edilməmiş əmək məzuniyyətim qalıb. Kompensasiyasını almaq istəyirəm, vermirlər. Tanış vəkildən soruşdum, dedi ki, verilməlidir, bu, düzdürmü?

**Fərmayıl HƏMİDOV,
Ağsu rayonu.**

- Bəli, Əmək Məcəlləsinin 135-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq işçi müvafiq iş ilində əmək məzuniyyətindən istənilən səbəbdən istifadə etmədikdə, ona həmin iş ili (iş illəri) üçün istifadə edilməmiş əmək məzuniyyətinə görə müəyyən olunmuş qaydada və məbləğdə kompensasiya ödənilir. Kompensasiyanın verilməməsinə görə İnzibati Xətalar Məcəlləsinin 192-ci maddəsi ilə məsuliyyət nəzərdə tutulmuşdur.

192.5.-ci maddəyə əsasən, işçinin məzuniyyət hüquqlarının pozulmasına, işçiyə əmək məzuniyyətinin verilməməsinə, habelə istifadə edilməmiş əmək məzuniyyətinə görə müəyyən edilmiş kompensasiyanın ödənilməməsinə görə-

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**



# Qadınlar üçün daha yaxşı məşğulluq imkanları yaradılmalıdır

**COVID-19 pandemiyasının Latın Amerikası və Karib hövzəsi ölkələrinin əmək bazarlarında yaratdığı böhran qadınlara böyük təsir göstərib. Beynəlxalq Əmək Təşkilatının (BƏT) dərc etdiyi texniki qeyddə də vurğulanır ki, iş yerlərində gender bərabərliyinin pozulması regionu problem qarşısında qoyub.**

Böhranın ən ağır dövründə, 2020-ci ilin ikinci rübündə qadınların itirdiyi 23,6 milyon iş yerindən hələ 2021-ci ilin sonuna qədər 4,2 milyona yaxını bərpa edilməli idi. Digər tərəfdən, kişilərin o vaxt itirdiyi 26 milyon iş yeri, demək olar ki, tamamilə bərpa edilmişdir.

"8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində yadda saxlamalıyıq ki, işdə gender bərabərliyinə nail olmaq üçün həyəcanverici uğursuzluqla üzləşirik. Buna görə də region itirilmiş mövqeləri bərpa etmək və qadınlar üçün daha çox və daha yaxşı məşğulluq imkanları yaratmaq üçün səylərini ikiqat artırmalıdır" , - deyə **BƏT-in Latın Amerikası və Karib hövzəsi üzrə direktoru Vinisius Pinheyro** bildirib.

**"COVID-19 zamanı əmək bazarının icmalı" adlı regional seriyanın bir hissəsi olan BƏT-in "Latın Amerikası və Karib hövzəsi: pandemiya dövründə gender bərabərliyi və əmək bazarında siyasət" adlı texniki qeydi qadınların məşğulluğu sahəsində bir sıra məlumatları təqdim edir. Regionun müxtəlif ölkələrində təcrübədə tətbiq edilmiş strategiyalara əsaslanır.**

V. Pinheyro deyib ki, iki il əvvəl, 2020-ci ilin mart ayının ortalarında böhran başlayanda qadınlar iş yerlərini və gəlirlərini dəhşətli şəkildə itirdilər. Qadınlar arasında işsizlik artdı, lakin ən təsirli hadisə işçi qüvvəsi sıralarını kütləvi şəkildə tərk etmə idi. Bu da işçi qüvvəsində iştirak səviyyəsinin iyirmi il bundan əvvəlki səviyyəyə çatmasına gətirib çıxardı.

BƏT-in yeni texniki qeydində vurğulanır ki, qadınların iştirakının regional göstəricisi 1990-cı illərin əvvəllərində 41 faizə yaxın olsa da, 2019-cu ildə (orta hesabla ilk üç rübdə) 52,3 faizə qədər yüksəlmişdir. 2020-ci ilin eyni dövründə bu göstərici 47 faizə enib, baxmayaraq ki, həmin il region üzrə orta göstərici 43 faizə çatıb.

**2021-ci ildə də iştirak göstəricisi kifayət qədər bərpa olunmadı. Çünki o 49,7 faizə yüksəlib ki, bu da pandemiyaya qədər mövcud olan səviyyədən 2,5 faiz aşağıdır.**

Eyni zamanda 2021-ci ilin üçüncü rübündə qadınlar arasında orta işsizlik səviyyəsi 12,4 faiz təşkil edir ki, bu da 2020-ci ilin səviyyəsinə uyğundur. Bu, ümumi işsizlik səviyyəsindən (10 faiz) və kişilər üçün göstəricidən (8,3 faizdən) yuxarıdır.

BƏT-in təhlilində bildirilir ki, səhiyyədə fövqəladə vəziyyətin aradan qaldırılması üçün görülən tədbirlər, məsələn, təhsil müəssisələrinin və ümumilikdə qayğı mərkəzlərinin bağlanması qadınların əmək fəaliyyətində iştirakına mənfi təsir göstərib.

**Buna əlavə olaraq, sosial təcrid tədbirlərinin daha çox təsir göstərdiyi (ticarət, restoran və otellər, həmçinin asudə vaxt) fəaliyyət sektorlarında qadın əməyi üstünlük təşkil edir.**

Öz növbəsində qeyri-formal məşğulluqda və qadınların məşğulluğunun üstünlük təşkil etdiyi mikro, kiçik və orta müəssisələrdə təsir daha güclü idi. Məşğul olanların 91 faizini qadınlar, 72 faizini isə qeyri-rəsmi işçilər təşkil edən ev işləri əhəmiyyətli itkiyə məruz qalıb.

**BƏT-in Əməyin iqtisadiyyatı üzrə regional mütəxəssisi Roxana Maurizio bildirib ki, pandemiya mövcud struktur bərabərsizliyini daha da gücləndirdi. Kəndlərdə yaşayanlar, azyaşlı uşaqları olan ev təsərrüfatlarının başçıları, təlim və təhsil səviyyəsi aşağı olanlar, yerli etnik qrupların nümayəndələri və Afrika əsilli qadınlar daha çox zərər çəkmişlər. Gender fərqi aşağıgəlirli və aşağı təhsil səviyyəsinə malik qadınlar arasında davam edir.**

BƏT-in tədqiqatı gender problematikasını nəzərə alaraq pandemiyanın təsirini yumşaltmaq və iqtisadiyyatı yenidən qurmaq üçün əmək bazarı siyasətlərini və tədbirləri təhlil edir.

**BƏT-in texniki qeydində deyilir ki, gender bərabərliyi mülahizələri pandemiya zamanı və bərpa mərhələsində həyata keçirilən bütün proqram və strategiyaların, siyasətlərin, qanunların və qaydaların tərtibi, hazırlanması, tətbiqi və nəticələrinin təhlilinin ayrılmaz tərkib hissəsi olmalıdır.**

# İqtisadi siyasət islahatlarında böyük dəyişikliyin əhəmiyyəti



**"Avropa Komissiyasının 2023-cü il üçün maliyyə təlimatlarında investisiyaların və dayanıqlı artımın, eləcə də diferensiallaşdırılmış fiskal strategiyaların təşviq edilməsi zərurətini vurğulaması Avropa İttifaqının (Aİ) iqtisadi siyasət islahatlarında böyük dəyişikliyin ümidverici əlamətidir". Bunu Avropa Həmkarlar İttifaqları Konfederasiyasının katibi Liyna Karr deyib.**

L.Karr bildirib ki, iqtisadi idarəetmənin yenidən nəzərdən keçirilməsi əhəmiyyətli dəyişikliklərə səbəb ola bilər: "Rusiyanın Ukraynaya müdaxiləsi zamanı Aİ-yə üzv dövlətlərin müharibəni dayandırmaq, qaçqın axını və Rusiya qazından asılılığı azaltmaq kimi məsələlərin öhdəsindən gəlmək üçün malik olmalı olduğu qeyri-müəyyənliyin əsas səbəbi kimi baxıldığında, Aİ-nin investisiya və dövlət xərclərini məhdudlaşdıran iqtisadi siyasət qaydaları mənasızdır. Bu, iqlim dəyişikliyi ilə mübarizə və Avropa iqtisadiyyatını daha yaşıl, daha rəqəmsal və sosial cəhətdən ədalətli olması üçün modernləşdirməsilə bağlı uzun müddətdir mövcud olan ehtiyacı dəyişmir.

Pandemiya dövründə hökumətlərin iş yerlərini saxlamağa və səhiyyə sahəsindəki fövqəladə vəziyyətin öhdəsindən gəlməyə kömək etmək üçün tətbiq edilən sərt qənaət qaydalarından çıxma haqqında qondarma ümumi çıxış müddəası hələ 2023-cü ildə ləğv edilməlidir.

**Aİ-nin iqtisadi siyasəti və prioritetləri ilə düzgün istiqamətdə hərəkət etməsi məni ruhlandırır. İqtisadi siyasət qaydalarının islahatı təxirəsalınmaz haldır. İnvestisiyaları təmin etmək və layiqli iş yerləri yaratmaq üçün ciddi dəyişikliklər edilməlidir".**



**Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası (BHİK) plastik çirklənmə böhranı ilə mübarizə aparmaq məqsədilə qlobal müqavilə üzrə razılaşmanı alqışlayıb. Lakin işçilər üçün ədalətli keçidi təmin etmək üçün təcili tədbirlər görülməsini tələb edib.**

Qeyd olunur ki, 200-ə yaxın ölkə 2024-cü ilin sonuna qədər qlobal hüquqi qüvvəyə malik saziş layihəsini tamamlamaq üçün Hökumətlərarası Danışıqlar Komitəsinin yaradılmasını nəzərdə tutan qətnaməyə razılıq verib.

**BHİK-in Baş katibi Şaran Barrou bildirib ki, yekun qətnamədə qeyri-formal işçilərin və işçi kooperativlərin bir çox yerlərdə plastik kütlənin yığılması, çeşidlənməsi və emalında əsas rolu tanınır. Lakin yekun razılaşma bütün istehsal prosesində işçilərin əhəmiyyətini qəbul etməlidir.**

Müqavilənin bu işçilərə gələcək təsirini ədalətli şəkildə həll etmək üçün hərtərəfli "ədalətli keçid" planlarını əhatə etməlidir. Hazırda bizə yalnız hər bir ölkədə və şirkətdə təsirə məruz qalan işçi üçün keçid planları lazımdır.

Biz plastik tədarük zəncirindəki bütün işçilərin eşidilməsini və maraqlarının nəzərə alınmasını təmin etmək üçün Hökumətlərarası Danışıqlar Komitəsi ilə tam şəkildə əməkdaşlıq edəcəyik.

**Komitənin aşağıdakıları əhatə edən qanuni qüvvəyə malik müqavilə təqdim etməsi gözlənilir:**

-plastiklərin tam istifadə dövrü;
-məhsulların və materialların dizaynı;
-texnologiyaya çıxışı və elmi-texniki əməkdaşlığı asanlaşdırmaq üçün beynəlxalq işbirliyinə ehtiyac.

**BMT-nin Ətraf Mühit Proqramının məlumatına görə, qlobal plastik istehsalı ildə təqribən 400 milyon tona yüksəlib və yalnız təxminən 9 faizi təkrar emal olunur.**

# Həmkarlar ittifaqlarında birləşmək...



**"The New York Times" qəzetinin təxminən 600 texniki işçisindən ibarət bir qrup həmkarlar ittifaqlarına birləşməyə səs verib. Qərar nəşr rəhbərliyinin həmkarlar ittifaqının yaradılmasına müdaxilə ilə bağlı ittihamları fonunda qəbul edilib. ABŞ Milli Əmək Münasibətləri Şurasının (NLRB) məlumatına görə, işçilər artıq "Times Tech Guild"ə qoşulmaq üçün 88 əleyhinə olmaqla, 404 lehinə səs verib. "The New York Times" qəzetinin sözçüsü Daniel Rouds Ha bildirib ki, şirkət həmkarlar ittifaqı ilə müqavilə bağlamağı səbirsizliklə gözləyir.**

"Times Tech Guild"in bəyanatında məlumat verilib ki, həmkarlar ittifaqına daxil olma onun üzvlərinə maaşları, müavinətləri və iş şəraiti haqqında müstəqil fikir yürütməyə imkan verəcək.

Həmkarlar ittifaqından bildirilib ki, biz yalnız texniki işçilərə ədaləti və hörməti təmin edəcək, həm də bütün istiqamətlər üzrə sahə standartlarını müəyyənləşdirəcək etibarlı müqavilə bağlamaq üçün rəhbərliklə birgə iş gözləyirik.

**Dekabr ayında Milli Əmək Münasibətləri Şurasının baş hüquq məsləhətçisi qəzeti həmkarlar ittifaqı kampaniyası ilə əlaqədar ədalətsiz əmək təcrübəsində ittiham edən şikayət verib. Şikayətə əsasən, rəhbərlik ötən ilin mayında virtual görüş zamanı bəzi əməkdaşlara bildirmişdi ki, onlara həmkarlar ittifaqına dəstək nümayiş etdirmək qadağan edilib. Qəzet qanun pozuntularını inkar edir. İnzibati məhkəmədə məhkəmə martın 14-nə təyin edilib.**

# Ukraynadakı mövcud vəziyyətlə bağlı beynəlxalq onlayn konfransı keçirilib

**Martın 2-də Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Birliyinin (EPSU) Ukrayna həmkarlar ittifaqları ilə birgə Ukraynadakı mövcud vəziyyətlə bağlı beynəlxalq onlayn konfransı keçirilib.**

Görüşdə Avropanın, eləcə də dünyanın bir sıra həmkarlar ittifaqı təşkilatının 300-ə yaxın nümayəndəsi iştirak edib.

Konfransda çıxış edən **Ukrayna Dövlət Qulluqçularının Həmkarlar İttifaqının sədri Yuriy Pijuk** həmrəyliyə görə minnətdarlığını bildirib və işğala məruz qalan Ukrayna xalqının vəziyyətinin ürəkaçan olmadığını deyib: "Sülh olmasa, işçilərin hüquqlarının, hətta insan haqlarının qorunmasında irəliləyiş ola bilməz. Ukraynada baş verən reallıqların bütün dünyada tanıdılmasına çalışılmalıdır".



**Ukrayna Tibb İşçiləri Həmkarlar İttifaqının üzvü Viktoriya Koval raket zərbələrindən, atəş səslərindən qorxmayan insanların göstərdikləri əzmkarlığı yüksək qiymətləndirdi: "Xəstəxanalar bombalanır, amma tibb işçiləri qayğı göstərməkdə davam edirlər, məktəblər dağılsa da, müəllimlər zirzəmilərdə dərs deməyə çalışırlar".**

Qonşu Moldova, Rumıniya və Litvanın həmkarlar ittifaqı rəhbərləri qaçqınları qəbul etməyə hazır olduqlarını bildiriblər. Onlar qaçqınların keçidi və onlara həyati əhəmiyyətli yardım göstərilməsi üçün xüsusi zonaların yaradılmasının zəruriliyini vurğulayıblar.

Tədbirin sonunda Avropada Ukrayna üçün dəstək fondunun yaradılması haqqında məlumat verilib. Dünyanın aparıcı həmkarlar ittifaqı təşkilatları öz üzvlərini fonda ianə köçürməyə və Ukraynada ağır vəziyyətdə olan xalqa kömək etməyə çağırıblar.

**Tədbirdə Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Beynəlxalq və iqtisadi əlaqələr şöbəsinin baş məsləhətçisi *Nərgiz Məmmədova* da iştirak edib.**

**Səhifəni hazırladı:
Azər MUSTAFAYEV**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
Son səhifə
CÜMƏ AXŞAMI, 10 MART 2022-Cİ İL / № 09 (1276)


# İdman mütəxəssisləri mükafatlandırılıblar



**Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən 5 Mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları (AHİT) İctimai Birliyinin bir qrup işçisi Fəxri Fərman və pul mükafatı ilə təltif olunub. İdman mütəxəssisləri gənc nəslin fiziki tərbiyəsində, peşəkar idmançıların hazırlanmasında əldə etdiyi uğurlara və kollektivin ictimai həyatında fəal iştiraklarına görə mükafatlandırıldılar.**

Qeyd edək ki, Prezident İlham Əliyevin 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən, hər il 5 Mart - Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd edilir. Dövlətimizin idmana göstərdiyi diqqət və qayğı sayəsində ölkəmizdə idmanın inkişafı ildən-ilə daha geniş vüsət alır.

Son illərdə idmançılarımızın istər kütləvi, istərsə də fərdi idman növlərinə görə əldə etdikləri uğurlar Azərbaycanın idman ölkəsi kimi qazandığı beynəlxalq statusu daha da möhkəmləndirib.

**AHİT İctimai Birliyinə daxil olan idman cəmiyyətləri və klubları həm respublikamızda, həm də beynəlxalq arenalarda keçirilən yarışlarda uğurla iştirak edir, idman sahəsində ölkəmizin uğurlarının artmasına öz töhfəsini verir. Onların Avropa, dünya çempionatları və kubok yarışlarında qazandıqları medal sayı artmaqda davam edir.**

# AƏSMA-nın komandası ikinci yeri tutub



**Martın 3-də Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin və "Binəqədi Gənclər Evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə 5 Mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə elan olunmuş "İdman həftəsi" çərçivəsində könüllülər arasında futbol turniri keçirilmişdir.**

Turnirin yekun nəticəsinə əsasən, Azərbaycan İdman Könüllüləri İctimai Birliyinin komandası 1-ci yeri, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının komandası 2-ci yeri, "Binəqədi Gənclər Evi" sosial xidmət müəssisəsinin komandası isə 3-cü yeri tutmuşdur.

**Qaliblər diplomlarla təltif olunmuşdurlar.**

# "Pəhləvan" İK-nin yetirmələrinin uğuru

**Martın 1-dən 4-dək Şağan Olimpiya İdman Kompleksində yeniyetmələr arasında sərbəst və yunan-Roma güləşi üzrə Bakı şəhər çempionatı keçirilib. Azərbaycan Güləş Federasiyası və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən birincilik qarşıdan gələn U-17 Azərbaycan çempionatına seçim xarakteri daşıyıb.**




Paytaxt çempionatında "Pəhləvan" İdman Klubunun yetirmələri də uğurla təmsil olunublar. Sərbəst güləş üzrə yarışlarda Hüseyn Hüseynov (51 kq.) və Kamil Əhmədzadə (55 kq.) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıblar. Fuad Qəribov (110 kq.) isə üçüncü yeri tutub.

**Yunan-Roma güləşi üzrə təşkil olunan yarışda isə Ramazan Yusubov (71 kq.) ikinci, Nihad Yadigarov (55 kq.) və Elvin Məmmədov (110 kq.) üçüncü olub.**

İdman Klubunun digər yetirmələri Emin Cavadi (45 kq.), Rüfət Almaslı (80 kq.) və Asif Kərimov (110 kq.) sıralamada beşinci pillədə qərarlaşıblar.

**İdmançılar yarışa məşqçi-müəllimlər A.Əliyevin, A.Hüseynovun və A.Nəsibovun rəhbərliyi altında hazırlaşıblar.**

# Martın 12-dən Bakı və Abşeron ərazisində "Kənddən Şəhərə" Novruz yarmarkaları açılacaq




**Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Novruz bayramı ilə əlaqədar olaraq 12-19 mart tarixlərində "Kənddən Şəhərə" yarmarkaları təşkil olunacaq.**

Bakı və Abşeron ərazisində üç fərqli ünvanda keçiriləcək yarmarkanın təşkilində əsas məqsəd bayram günlərində vətəndaşların kənd məhsullarına artan tələbatlarını yerli və sağlam məhsullarla qarşılamaq və yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı təşkil etməkdir.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən bildiriblər ki, "Kənddən Şəhərə" Novruz yarmarkalarında satışa çıxarılacaq məhsullar müxtəlif regionlarda fəaliyyət göstərən və iştirak üçün əvvəlcədən qeydiyyatdan keçən fermerlər tərəfindən alıcılara təqdim olunacaq. "Kənddən Şəhərə" Novruz yarmarkalarında 50-yə yaxın regiondan 100-dən artıq fermer 50-yə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcək.

**Satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət etmək məqsədilə yarmarkalarda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar yarmarkada satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər.**

Qeyd edək ki, bayram yarmarkası karantin rejiminin tələblərinə əməl olunmaqla baş tutacaq. Yarmarkada iştirak edəcək fermerlər ödənişsiz şəkildə piştaxta, tərəzi və digər avadanlıqlarla yanaşı, tibbi ləvazimatlarla (tibbi maska, dezinfeksiyaedici maddələr, əlcək və s.) da təmin olunacaqlar. Yarmarkaya alış-verişə gələcək vətəndaşlar temperaturları ölçüldükdən sonra yarmarka ərazisinə buraxılacaqlar. Həmçinin yarmarkanın keçiriləcəyi müddətdə təşkilatçı qurum tərəfindən yarmarka ərazisində mütəmadi olaraq dezinfeksiya işləri aparılacaq və ziyarətçilərin sosial məsafəni qorumasına ciddi nəzarət olunacaq.

**"Kənddən Şəhərə" Novruz yarmarkası aşağıdakı ünvanlarda fəaliyyət göstərəcək:**

**- Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (metronun "Gənclik" stansiyasının çıxışı);**
**- Binəqədi rayonu, Süleyman Sani Axundov, 5B ("İnqilab" kinoteatrının yanı);**
**- Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A**

## ALLAH RƏHMƏT ELƏSİN!

"Ülfət" qəzeti redaksiyasının kollektivi Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Neft və Qaz Sənayesi İşçiləri HİRK-in sədri Cahangir Əliyev və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Neft və Qaz Sənayesi İşçiləri HİRK-in sədri Cahangir Əliyev və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təbii Sərvətlər və Ekologiya İşçiləri HİRK-in sədri Telman Quliyev və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təbii Sərvətlər və Ekologiya İşçiləri HİRK-in sədri Telman Quliyev və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri HİRK-in sədri Rəşad Səfərov və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AHİK-in aparat işçiləri iş yoldaşları Elxan Şahverdiyevə əzizi, AMEA-nın müxbir üzvü
**ZƏHMƏT ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru Hüseyn Qaraşov və kollektivi AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**MİNA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru Hüseyn Qaraşov və kollektivi Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya əzizi
**RUHULLA müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru Hüseyn Qaraşov və kollektivi Təhsil İşçiləri Azad HİRK-in hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mədəniyyət İşçiləri Hİ Yevlax Rayon Komitəsinin sədri Zöhrə Adgözəlova Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Bərdə Rayon Komitəsinin sədri Vüqar Şadlinski Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Gədəbəy Rayon Komitəsinin sədri Sona Verdiyeva Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Salyan Rayon Komitəsinin sədri Vəfa Əbilova Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ İsmayıllı Rayon Komitəsinin sədri Gülər Abdullayeva Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Qəbələ Rayon Komitəsinin sədri Malik Ağayev Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Qobustan Rayon Komitəsinin sədri Leyla Hüseynova Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Şəmkir Rayon Komitəsinin sədri Fərhad Cəfərov Respublika Komitəsinin sədri, Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Xaçmaz Rayon Komitəsinin sədri Qarib Umudov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Quba Rayon Komitəsinin sədri Məhərrəm Hacıyev Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Qusar Rayon Komitəsinin sədri Neva Abdurrahmanova Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Şabran Rayon Komitəsinin sədri Aysel Meylaverdiyeva Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Siyəzən Rayon Komitəsinin sədri Ziyadə Dadaşova Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Naftalan Şəhər Komitəsinin sədri Sücayyət Salehova Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Kəlbəcər Rayon Komitəsinin sədri Nürəddin Həsənov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7505
Sifariş: 723
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət